**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**Azərbaycan dilçiliyi kafedrası**

*Əlyazması hüququnda*

**GÜLƏR ALLAHVERDİ qızı ƏLİYEVA**

# AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN MÜASİR PROBLEMLƏRİ

**İxtisas: HSM - 060201 - Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası**

**Magistr elmi dərəcəsi almaq üçün tədqim edilmiş**

**DİSSERTASİYA**

Elmi rəhbər: ____________________________

Yeganə Museyib qızı Hacıyeva

Filologiya elmlər namizədi, dosent

**BAKI 2018**

# M Ü N D Ə R İ C A T

**GİRİŞ......................................................................................................3-9**

**I FƏSİL. Azərbaycan təhsil sisteminin metodologiyası.............................................10-35**

1.1. Azərbaycan dili tədrisi metodikasının inkişaf tarixi.............................................10-20

1.2. Azərbaycan dili metodologiyası və yeni metod anlayışı......................................20-29

1.3. Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası....................29-35

**II FƏSİL. Azərbaycan dili tədrisinin qarşısında duran müasir problemlər...........36-64**

2.1. Milli-mənəvi dəyərlər və təhsildə modernizm.......................................................36-47

2.2. Azərbaycan dili tədrisində istifadə olunan fəal-interaktiv təlim metodları.............47-64

**NƏTİCƏ.....................................................................................................65-67**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.......................................................................68-72**

# GİRİŞ

**Mövzunun aktuallığı**. Tədqiq olunan mövzu "Azərbaycan dili tədrisinin müasir problemləri" metodika sahəsində geniş tədqiq edilmiş mövzulardan biridir. Ümumiyyətlə, Azərbaycan dilinin tədrisində yaranan problemlər hər bir dilçinin maraq obyektinə çevrilmiş və bu sahədə nöqsanları aradan qaldırmaqdan ötrü çox sayda işlər görülmüşdür. Azərbaycan dili qədim tarixi olan dillərdən biridir və çox çətin dövrlərdən keçərək müasir dövrümüzə qədər gəlib çatmışdır. Təbii ki, onun bizə gəlib çatmasında şairlərimizin, tarixçilərimizin, tədqiqatçılarımızın, dilçi və yazıçılarımızın böyük rolu vardır. Ana dilinə olan sonsuz sevgiləri onların əsərlərində və yazılarında özünü mükəmməl səviyyədə göstərir.

Azərbaycan dilinin yaşını müəyyənləşdirmək istəsək, görərik ki, "Kitabi-Dədə Qorqud" dastanlarının dili doğma dilimizin şifahi növü kimi qəbul edilirsə, deməli müasir dövrümüzdə xalqımızın ünsiyyətinə xidmət edən Azərbaycan dilinin 1300 ildən çox yaşı vardır. 8 əsrə yaxın inkişafda olan Azərbaycan ədəbi dilinin tarixini iki dövrə bölürlər. Birinci dövr XIII əsrdən XVIII əsrə qədər davam edib və əski dövr adlandırılır. Bu dövrdə Azərbaycan dili geniş bir areala yayılmışdı. İkinci dövr isə XVIII əsrdən bugünümüzə qədər olan dövrü əhatə edən və hal-hazırda istifadə etdiyimiz ana dilimizdir.

Demək olar ki, Azərbaycan dili məsələsi hər bir dövr dilçiləri və ədəbiyyatçılarının aktual problemləri sırasında ilk pillələrdə idi. Buna görə də dil sahəsində müxtəlif islahatlar aparılırdı. Bu islahatlar sırasında 1999-cu ildə təhsil sistemində aparılan islahatların adını çəkmək olar ki, artıq bunlar öz faydasını göstərməkdədir. Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil sahəsində bir sıra uğurlu islahatlar aparılmışdır . Bu islahatların aparılmasının əsas məqsədi Azərbaycan təhsilinin Avropa təhsilinə inteqrasiya edilməsi idi.

"Kurikulum" sistemi tətbiq olunduqdan sonra təhsildə çoxlu uğurlara imza atıldı . Bu sistemə görə təhsil ocaqlarında Azərbaycan dilinin tədrisi milli maraqlar

və dövlətçilik nöqteyi nəzərindən mühüm bir məsələ hesab olunurdu. Azərbaycan dilinin tədrisi şəxsiyyətin formalaşmasında vacib nüans idi. Firudin bəy Köçərli boşuna deməmişdir ki, “Ana dili millətin mənəvi diriliyidir. .. Ananın südü bədənin mayəsi olduğu kimi, ana dili də ruhun qidasıdır.” (29, s. 32)

Azərbaycan dilinin tədrisinin əsas problemlərindən biri də dərsliklər idi. Demək olar ki, bir müddət ana dilnə aid heç bir dərslik materialı olmamış, müəllimlərin bir çoxu əsərlərə müraciət edərək Azərbaycan dilinin gözəlliyi və zənginliyi haqqında məlumat vermişlər. Orta əsrlərdə bu məsələ ilə bağlı tədqiqat işləri aparılsa da, ana dilinə aid ilk dərslik və əsərlər XIX əsdən yazılmağa başladı. Bu əsərlər sırasında Mirzə kazimbəyin rus dilində yazdığı “Türk-tatar dilinin ümumi qrammatikası” əsəri, M.Vəzirovun, N.Nərimanovun, S.M.Qəniyevin, Q. Makarovun ana dilinə aid rus dilində yazdığı əsərləri, M.Əfşarın azərbaycanca yazdığı və ana dilinə aid olan “Türk dilinin qrammatikası” əsərini nümunə göstərmək olar. Bütün bu dərsliklərin təbii ki, Azərbaycan dilinin inkişafında çox böyük rol oynadığı danılmazdır.

Azərbaycan dilində yaranan problemlər də, yüksək tərəqqi də , əsasən, XX əsrə aiddir. Bu dövrdə dilin inkişafında üç tendensiya mövcud idi:

1. Ədəbi dili xalq dilinə yaxınlaşdırmaq meyli idi. “Molla Nəsrəddin ” jurnalının özü və orada çalışanların əsərlərində bu meyl özünü açıq şəkildə biruzə verirdi. Əsərlər nə qədər xalq danışıq dilinə yaxın bir formada yazılırdısa, o qədər də camaat tərəfindən başa düşülür və hər kəsin mütaliə etməsinə gətirib çıxarırdı. Bu da nəticə olaraq xalqın savadlanması və qəflət yuxusundan oyanmasına gətirib çıxarırdı.
2. İkinci meyil, əski Azərbaycan dili ənənəsini saxlamaqla ana dilnin inkişafını önə çəkirdi. “Füyüzat” jurnalında çalışan yazıçıların əsərlərində bunu açıq şəkildə görmək mümkündür. Lakin xalq bu dili çətin başa düşürdü. Çünki, əsərlər çətin və anlaşılmayan tərkiblər və ifadələrlə dolu idi.

3. Üçüncü meyil isə, hərkəs tərəfindən anlaşılan, dialekt və şivələrdən uzaq, ədəbi dilin normalarına riayət edilən bir dil yaratmaq meyli idi. A.Səhhət, C.Cabbarlı, A.Şaiq və onlarla yazıçı bu dili yaratmaqda əllərindən gələni edirdilər.

Təbii ki, bu meyillərin hər birinin öz tərəfdarı var idi. Lakin mən belə düşünürəm ki, üçüncü meyil Azərbaycan dilinin gələcəyi üçün daha uğurlu meyil idi. Çünki, dilin ədəbi dil normalarına əsaslanaraq xalqa aşılanması daha uğurlu nəticələr verəcək idi ki, müasir dövrdə bunun nəticəsini artıqlamasıyla müşahidə edirik.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gəldikdən sonra yeganə məqsədi Azərbaycan dilinin Dövlət dili statusu alması idi. H.Əliyev buna 1995-ci ildə ümumxalq referendumuyla qəbul olunmuş konstitusiya əsasında nail oldu və Azərbaycan dili dövlət dili kimi elan edildi.

Bütün bu islahatlar onu göstərir ki, Azərbaycan dilinin dövlətin formalaşmasında, xalqın milli-mənəvi dəyərlərinin qorunmasında, uşaqlarımızın gələcəkdə vətənpərvər bir övlad kimi yetişib xalqımızı layiqincə təmsil etməsində rolu böyükdür. Bu dil bizə ulu babalarımızın əmanətidir. Biz də çalışmaliyıq ki, dilimizi gələcək nəslə heç bir xələl gətirmədən ötürək.

**Tədqiqatın obyekti.** Tədqiqatın başlıca obyektini V-XI siniflərdə keçirilən Azərbaycan dili , həmçinin dilin tədrisində qarşımıza çıxa biləcək problemlər və Azərbaycan təhsil sistemi təşkil edir. Bu baxımdan dissertasiyada Azərbaycan dilinin tədrisində istifadə olunan metodlar verilmiş və dilin tədris olunma məsələlərinə də bu metodlar vasitəsilə toxunulmuşdur. Ümumiyyətlə, ali təhsil və orta ümumi təhsil ocaqlarında Azərbaycan dili tədrisi məsələlərinə toxunulmuşdur.

**Tədqiqatın predmeti.** Dissertasiyamızın predmeti V-XI siniflərdə Azərbaycan dilinin tədrisində istifadə olunan fəal-interaktiv təlim metodları, Azərbaycan dilinin tədrisinin problemləri, təhsillə bağlı olan məsələlər təşkil edir. Tədqiqatda müasir təhsil sistemi, təhsilimizin Avropa təhsil sisteminə inteqrasiya edilməsi və s. kimi

məsələlərə yer verilsə də , əsas hissəni Azərbaycan dilinin tədrisində istifadə olunan feal-interaktiv təlim metodları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan dilinin tarixi dövrlərdə keçdiyi inkişaf yolunu, təhsildə əsas rolunu, zənginliyini, gözəlliyini, tədqiqatçıların Azərbaycan dili haqqında düşüncələrini və toxunmuş olduqları məsəslələri ön plana çəkmək, həmçinin dərs zamanı şagirdlərə keçirilən mövzularla bağlı metodlar vasitəsilə nümunələr vermək və təbii ki, Azərbaycan dilinin dövlətimiz və xalqımızın gələcəyində nə dərəcədə önəmli rol oynamasını göstərmək təşkil edir.

Tədqiqatımızın yazılma məqsədlərinə nail olmaq üçün daha çox Azərbaycan təhsilinin və dilinin metodologiyası və metodikasını araşdırmaq ön plana çəkilmişdir və aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

- Hər bir Azərbaycan vətəndaşının Azərbaycan dilinin tarixi keçmişinə dərindən bələd olması;
- Dövrün gətirdiyi yeniliklərlə milli-mənəvi dəyərləri sintez halında dilin tədrisinə tətbiq etməyi bacarmaq;
- Orta ümumi təhsil məktəblərində və ali təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi yollarını və metodlarını araşdırmaq.

**Tədqiqatın metodları.** Tədqiqat işində nəzəri yanaşma, nəzəri təhlil, müşahidə, müsahibə metodlarından istifadə olunub.

**Tədqiqatın mənbələri.** Tədqiqat işində Azərbaycan dilinin tarixinə dair dərsliklər və elmi əsərlərdən, müxtəlif məqalələrdən istifadə edilmişdir. Azərbaycan dilinin metodikasına aid kitab, dərslik, jurnal və məqalələrə müraciət olunmuşdur. Dissertasiya işində nəzəri metodoloji və metodika kitablarından, Azərbaycan dili tədrisi barədə dərsliklərdən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan dilinin tədrisi problemlərinə dair çoxlu tədqiqatlar aparılması barədə məlumat verdik. Lakin bunlar dərslik və məqalələr halında idi. Təbii ki, bu problemin aktuallığından danışarkən qeyd etdim ki, hər dövrdə araşdırılmışdır.

Dissertasiyamızda Azərbaycan dilinin tədrisi problemləri məsələsinə sistemli şəkildə, müəyyən ardıcıllıqla araşdırılmış və dəyərləndirilmişdir. Fəal-interaktiv təlim metodlarından dilin tədrisi zamanı düzgün şəkildə istifadə edilməsi barədə məlumat verilmişdir.

**Dissertasiyanın elmi-nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan dilinin tədrisinin yeni texnologiyalarla tədrisi müasir zamanda çox aktual olan problemlərdən biridir və elmi əhəmiyyət kəsb edir. Bildiyimiz kimi, metodlardan düzgün istifadə böyük əhəmiyyət daşıyır.

Tədqiqat işi ilk növbədə metodika üçün əhəmiyyət kəsb edir. Dissertasiyada nəinki metodlar verilmiş, həmçinin Azərbaycan dilinin keçdiyi məşəqqətli tarix yolu, müasir dövrdə təhsildə baş verən yeniliklər və bunların dilimizə təsiri barədə məlumat vardır.

Tədqiqatın elmi-nəzəri əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan dili dərslərində istifadə edilən təlim materialı və metodları zamanı tələbə və şagirdlərə müstəqil fikir söyləmək imkanı verilsin

Tədqiqatın praktik əhəmiyyəti isə ondan ibarətdir ki, təhsil ocaqlarında dərs verən Azərbaycan dili müəllimlərinin işinin müəyyən bir istiqamətə salınması üçün əlverişli vasitə olsun.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Dillər Universiteti Magistratura şöbəsinin Filologiya və jurnalistika fakültəsinin “Azərbaycan dilçiliyi” kafedrasında hazırlanmışdır.

Disssertasiya ilə bağlı iki məqalə çap edilmişdir. “Azərbaycan dilinin tədrisində fəal interaktiv metodlardan istifadə qaydaları” adlı birinci məqalə və “Milli-mənəvi dəyərlər və təhsildə modernizm” adlı ikinci məqalə elmi jurnallarda çap olunmuşdur.

**Tədqiqatın struturu və məzmunu.** Dissertasiyanın strukturu mündəricat, giriş, iki fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdi.

**Dissertasiyanın məzmunu.**“Azərbaycan dilinin tədrisinin müasir problemləri” adlı dissertasiya işi giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Eyni zamanda I fəsil üç yarımfəsildən, II fəsil isə iki yarımfəsildən ibarətdir.

“Azərbaycan təhsil sisteminin metodologiyası” adlanan birinci fəsil üç yarımfəsildən ibarətdir. Bu fəslin “Azərbaycan dili tədrisi metodikasının inişaf tarixi” adlı birinci yarımfəslində Azərbaycan dilinin inkişaf tarixi, dövrləşmələr haqqında məlumat verilmiş, qədim dövrlərdən bugünə kimi ana dilimizin keçdiyi çətin və məşəqqətli yol haqqında əhatəli şəkildə bəhs edilmişdir. Dissertasiyaya “Dövlət dili haqqında Azərbaycan Respublikasının qanunu”nun bir neçə maddəsi də əlavə edilmişdir.

İkinci yarımfəsil “Azərbaycan dili metodologiyası və yeni metod anlayışı” adlanır, burada metodologiya və metod məvhumları haqqında söhbət açılır. Kommunist-bolşevik ideologiyası və bu ideologiyanın Azərbaycan təhsil sisteminə vurduğu ziyanlar, Azərbaycançılıq ideologiyasının formalaşması və təhsilə gətirdiyi müsbət cəhətlər vurğulanıb. “Vətən dili” dərsliyinin Azəraycan dilinin metodologiyasının inkişafında rolu qeyd edilib. Təhsilimizdə sövti, höccələmə metodları və onların təhsilimizə vurduğu mənfi cəhətlərdən, ənənəvi və fəal təlim metodları haqqında söhbət açılıb. Təhsildə fəal dərs və interaktiv metodlar haqqında məlumat verilir.

“Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası” adlı üçüncü yarımfəsildə təhsilimizin Avropa təhsil məkanına inteqrasiyası haqqında danışılır. Avropa təhsil sisteminə inteqrasiya edərkən milli ənənələrimizə sadiq qalmamız, milli-mənəvi dəyərlərin qorunmasında dövlət apardığı işlər haqqında məlumat verilir. Boloniya sistemi və onun təhsilimizə göstərdiyi müsbət və mənfi təsirlərindən bəhs olunur.

II fəsil “Azərbaycan dili tədrisinin qarşısında duran müasir problemlər ” adlanır. Bu fəsil özündə iki yarımfəsli ehtiva edir. “Milli-mənəvi dəyərlər və təhsildə modernizm” adlanan birinci yarımfəsildə Azərbaycan dövlətçilik ənənələri, milli-

mənəvi dəyərlər və müasir təhsil haqqında bəhs edilmişdir. Dissertasiyanın bu hissəsində milli-mənəvi dəyərlərlə modern təhsilin sintezindən bəhs edilir. Dissertasiyanın bu yarımfəslində "Qloballaşma dövründə milli-mənəvi dəyərlərimizi qorumaqla necə müasirləşə bilərik?" sualına cavab axtarılır. Həmçinin Azərbaycan dilinin də Azərbaycan Respublikasının əsas milli dəyəri olması da qeyd edilir.

"Azərbaycan dili tədrisində istifadə olunan fəal-interaktiv təlim metodlar" adlı ikinci yarımfəsildə fəal-interaktiv təlim metodları haqqında geniş məlumat verilmiş və onların növləri verilmişdir. Bu növlərə aid cədvəl və qrafiklərlə nümunələr də göstərilmişdir.

# I FƏSİL. AZƏRBAYCAN TƏHSİL SİSTEMİNİN METODOLOGİYASI

## 1.1.Azərbaycan dilinin tədrisi metodikasının inkişaf tarixi

Etimolojı cəhətdən metodika yunan dilindən olan “methodike” sözündən götürülmüşdür, mənası hər hansı bir şeyin praktiki sürətdə icrası üçün istifadə olunan metod, üsul, prinsip və yolların məcmusu deməkdir. Metodika təlim nəzəriyyəsinə istinad edərək, muxtəlif fənlərin tədrisinin əsas qanunauyğunluqlarını tədqiq edir. Metodikanın tarixinə göz atsaq görərik ki, XVIII əsrə kimi didaktik məzmunlu əsərlərdə ayrı-ayrı fənlərin öyrənilməsi haqqında qısa məlumatlar verilirdi. Daha sonralar, elmin və texnikanın inkişaf etdiyi XVIII-XIX əsrlərdə artıq təlimin məzmunu dəyişmiş və hər bir predmet üçün təlim metodikası yaranması artıq vacib sayılmışdır. Azərbaycanda metodika elmi Rusiyaya nisbətən 30 il sonra, yəni XIX əsrin 80-ci illərindən inkişaf etmişdir. Burdan belə bir nəticəyə gəlirik ki, metodika olduqca gənc və yeni bir elmdir.

XIX əsrə kimi Azərbaycanda təhsil müəssisələri, əsasən, iki növdə mövcud olmuşdur:

1. Mollaxanalar ;
2. Mədrəsələr.

Mollaxanalarda ilkin anlayışlar verilirdi, yəni ibtidai təhsil, mədrəsələr isə ali ruhani təhsili verən məktəblər hesab edilirdi. Burdan belə bir nəticəyə gəlirik ki, mollaxanalar mədrəsələrə giriş üçün hazırlıq mərhələsi hesab olunurdu. Bu tədris müəssisəsində verilən biliklər uşaqların anlamadığı dildə olan feodal-ruhani mənafeyinə xidmət edən mətnlər idi. Keçirilən dərslər fərdi şəkildə, plansız və hər bir şagirdə müxtəlif cür tapşırıq verməklə aparılırdı və bunun nəticəsidir ki, uşaqlar heç bir savad və mədəniyyət əldə etmədən cahil bir həyat sürürdülər.

Bildiyimiz kimi, Azərbaycan uzun müddət ərəb, İran və osmanlı hakimiyyəti altında qalmış və təbii olaraq Azərbaycan dili də onların zərərli təsiri altına düşmüşdür.

Azərbaycanda Sovet hakimiyyəti qurulana qədər ərəb əlifbası işlədilirdi. Bu əlifba xalqımızın mədəniyyətini ləngitmiş, dilimizin inkişafına uzun müddət maneə törətmişdir. 1853-cü ildə ərəb əlifbasının nöqsanlarını F.Engels Marksa yazdığı məktubunda aydın şəkildə qeyd etmişdir:

“Əgər hər altı hərfi bir-birinin eynini təşkil edən və sait səslərdən məhrum olan bu lənətə gəlmiş ərəb əlifbası olmasa idi,mən fars dilinin qrammatikasını 48 saatın içərisində öyrənərdim. ” (1, s. 5 )

Azərbaycan dilinin bir dil kimi formalaşması problemi tarixən yazıçı, pedaqoq, dilçi və mütəfəkkirlərimizi düşündürmüşdür. Dahi yazıçı və mütəfəkkirlərimiz olan M.F.Axundov, C.Məmmədquluzadə, S.Ə.Şirvani, A.S.Mehdizadə, H.B.Zərdabi, M.Ə.Sabir və` digərləri Azərbaycan dilinə yüksək dəyər vermişlər. Onlar ana dilimizdə məktəb açmaq, öz dilimizə məxsus əlifba və dərsliklər hazırlamaq uğrunda məşəqqətli yol keçmişlər.

Tarixi baxımdan ana dilinin tədrisi 2 mühüm dövrə bölünür :

1. 1830-1920-ci illər;
2. 1920-2000-ci illər.

**1830-1920-ci illər.** Azərbaycan dili tədrisi problemi XIX əsrin 30-cu illərindən alimlərin əsərlərində öz əksini tapmış, əsrin ortalarından daha geniş vüsət almışdır. L.Z.Budaqov, M.Ş.Vazeh, A.A.Bakıxanov, M.Kazımbəy , L.M.Lazarov və digərləri Azərbaycan dili öyrətməyin vacibliyini öz yazılarında göstərmişlər.(8, s. 3)

Ana dili tədrisinin demək olar ki, ilk tədqiqatçısı və elmi fikir deyən professor M.Kazımbəy olmuşdur. Onun «Грамматика турецко-татарского языка» kitabında ana dilimizin morfologiya və sintaksis bölmələrindəki ümumi məsələlərindən danışılırdı.P.M.Budaqov «Практическое руководство турецко-татарско-азербайджанского наречия» adlanan əsərilə M.Kazımbəyin fikirlərinin davamçısı

olmuşdur. O, bu əsərində 20 dərs vermiş və bu dərslərin hər birinin sonunda mətndəki cümlələrin sintaktik xüsusiyyətlərini aydın şəkildə izah etmişdir. (1, s. 12)

Araşdırmalarımıza əsasən, M.Kazımbəyin davamçılarından biri də M.Ə.Vəzirov olmuşdur. Onun «Учебник татарско-азербайджанского наречия» əsərində M.Kazımbəyin qrammatika haqqındakı fikirlərinin daha sadə və asanlaşdırılmış forması verilmişdir. (1, s. 12)

M.F.Axundov böyük mütəfəkkir yazıçı olmaqla bərabər, həm də bir müddət müəllimlik etmiş və dərs dediyi bu müddətdə təhsildə olan problemlərə şahid olmuşdur. O öz həmvətənlərini cəhalətdən çıxarmaqdan ötrü çoxlu səylər göstərirdi. Onun bu çalışmalarının nəticəsi idi ki, ilk dəfə əlifba ideyasını ortaya qoyuldu. O əlifbanin dəyişdirilməsini zəruri olan tədbirlərdən də vacib hesab edərək yazırdı :

"Dəmiryol vacibdir. Amma əlifbanı dəyişdirmək ondan çox vacibdir. Teleqraf vacibdir. Amma əlifbanı dəyişdirmək ondan çox vacibdir. Dövlət qanunlarını tətbiq etmək vacibdir. Amma əlifbanı dəyişdirmək ondan çox vacibdir. " (1, s. 6)

Azərbaycan dövlətinin və ana dilinin gələcəyi uğrunda yorulmadan mübarizə aparan M.F.Axundov əlifbanı dəyişmək üçün çox cəhdlər etsə də, buna nail ola bilmədən dünyasını dəyişdi. Lakin buna nail olmasa belə xalqımızın maariflənməsində, uşaqlarımızın savadlı şəxsiyyət kimi formalaşmasında onun əsərlərinin böyük rolu var və həmişə də olacaqdır.

M.F.Axundovdan sonra ikinci əlifba məzmunu daşıyan A.O.Çerniyayevskinin "Vətən dili" kitabı idi. Bu kitabın üzü 1882-ci ildə R.Əfəndiyev tərəfindən köçürülmüşdür. R.Əfəndiyevin özü "Uşaq bağçası" dərsliyini 1899-cu ildə çap etdirmişdir. O, bu dərslikdə əlifbadakı 32 hərfdən 24 hərfi saxlamışdır. Onun bu kitabdan başqa 1901-ci -ildə "Bəsirət-ül-ətfal" kitabı da çapdan çıxarmışdır və qiraət üçün idi. (8, s. 4 )

S.Ə.Şirvani, M.H.Rüşdiyyə, M.T.Sidqi, M.M.Nəvvab, S.Vəlibəyov kimi mütəfəkkirlərimizin də Azərbaycan dilinin formalaşmasında rolu əvəzedilməzdir.

Ana dilinin tədrisində çox uğurlu addımlar atan şəxslərdən biri də F.Köçərli olmuşdur. F.Köçərli “Molla Nəsrəddin” jurnalında özünün məqalələri ilə fərqlənirdi . Onun məqalələrinin əsasını ana dilinin sadəliyi və şəffaflığı uğrunda mübarizə təşkil edirdi. Bu dövrdə Azərbaycan dilinin tədrisi üçün kifayət qədər dərslik yox idi. Bu məsələ F.Köçərlini çox düşündürmüş və 1912-ci ildə “Balalara hədiyyə” adlı kitabını çap etdirmişdir. Kitabın tərkib hissəsini 42 tərbiyəvi mətn və 33 mənzum parça təşkil edirdi. (8, s. 5)

Ana dilinin tədrisinin inkişafında xüsusi yeri olanlardan biri də görkəmli şairimiz A.Şaiqdir. “Dəbistan ”, “Məktəb” və “Rəhbər” jurnallarında onun kiçik yaşlı uşaqlar üçün çap etdirdiyi əsərlər də Azərbaycan dili metodikasının inkişafı tarixində rolu olan incilərdən hesab olunur.

Yuxarıda qeyd etdiyimiz dərsliklərdən əlavə, həmin dövrdə bir qrup müəllimlər də kitab və dərsliklər yazıb, nəşr etdirmişlər. Bunlar arasında M.Ələkbərin “Kitabipəndi ətfal”, M.H.Rüşdiyyənin “Vətən dili”, Ə.Axundzadənin “Xətti təliq və nəstəliq”, M.Şaxtaxtinskinin “Sövti Şərq Əlifbası”, M.H.Həsənzadənin “Tamam əlifba”, M.N.Şirvaninin “Təftül arifin lisanı türki”, M.A.Abbaszadənin “Əlifba” və digərlərini göstərmək olar. (8, s. 6)

Bu əsərlərin hər biri Azərbaycan dilinin tədrisi üçün mühüm mənbə olmuş , dilimizin tədris keyfiyyətinin yüksəldilməsinə öz işini layiqincə yerinə yetirmişdir. Uzun müddətli çalışmaların nəticəsi olaraq bu kitab, məqalə və dərsliklər 1921-ci ildən sonra tədrisdə zəngin materiala çevrilmiş, Azərbaycan dili tədrisi metodikasının elmi baxımdan inkişafına şərait yaratmışdır.

**1920-2000-ci illər.** Azərbaycan metodistləri metodika elminin inkişaf tarixini 3 dövrə bölürlər:

1. XX əsrin əvvəllərinə kimi olan dövr;
2. XX əsrin əvvəllərindən 20-ci illərinə kimi olan dövr;
3. XX əsrin 20-ci illərindən bugünə kimi olan dövr. (8, s. 7)

Təbii ki, metodika elminin inkişafında bir çox alim rol oynamışdır. Bu alimlər sırasında prof. B.Çobanzadə, prof. Ə.Dəmirçizadə, dos. Ə.Əhmədov, metodika üzrə ilk elmlər doktoru prof. A.S.Abdullayev, prof. B.Əhmədov, prof. Y.Kərimov və digərlərinin danılmaz rolu vardır.

XX əsrin 20-ci illərindən etibarən bir sıra alim, yazıçı və mütəfəkkirlər Azərbaycan dilinin tədrisi sahəsində faydalı fikirlər irəli sürmüşlər. Bunlar arasında Ə.Qafarlı, A.Şaiq, Q.Ələkbərli, B.Çobanzadə, A.Axundov və digərlərinin mülahizələrini nümunə göstərmək olar.

1920-ci ilə qədər nəşr olunan bütün Azərbaycan dili kitabları və dərsliklərində kiçik dəyişikliklər edilərək istifadəyə verilmişdir. Bu kitablar arasında "Türk əlifbası və ilk qiraət", "İkinci il ", "Üçüncü ilə məxsus qiraət kitabı" və s. adlarını çəkmək olar.

XX əsrin 40-cı illərində Z.Zeynalov, Ə.M.Qafarlı, Q.Ələkbərli və M.Ələkbərovun birgə təşəbbüsü və səyləri nəticəsində "İbtidai məktəbdə Azərbaycan dili metodikası " adlı əsər çap edilmişdir. Bu əsər ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikasının əsaslarını ifadə etmək baxımından çox önəmli mənbələrdə biri sayılırdı.

XX əsrin 50-ci illərində ibtidai siniflərdə ana dilinin tədrisi metodikasına aid olan və müəllimlər üçün elmi-metodik göstərişlər verilən məqalələr çap edilirdi. Bu məqalələrin müəllifi isə professor A.S.Abdullayev idi. Onun bu məqalələrində verdiyi elmi-metodik göstərişlər müəllimlərin işini asanlaşdırır və dərslərinin keyfiyyətini artırırdı.

60-cı illərdə Azərbaycan dili metodikasının inkişafı pedaqoji elmlər doktoru, professor Y.Ş.Kərimovun fəaliyyəti ilə bağlıdır. Onun fəaliyyəti nəticəsində proqram, dərslik, metodik ədəbiyyat, əyani vəsaitlər və s. hazırlanması sahəsində işlər aparılmışdır. Azərbaycan dili tədrisi metodikası sahəsində elmi kadrların hazırlanması işinə də önəm verən Y.Ş.Kərimov 500-dən artıq məqalənin, 150-ə yaxın kitabın müəllifidir. Onun uğurlu yolunu davam etdirən şəxslər də var idi. Y.Ş.Kərimovun

davamçıları sırasında Ə.H.Şükürov, Z.F.Kərimov, A.N.Rəhimov və digərlərinin adlarını çəkmək olar. Onların apardığı tədqiqat işləri Azərbaycan dili tədrisi metodikasının inkişafı tarixində ozünəməxsus rol oynayır.

Yuxarıda qeyd etdik ki, Y.Ş.Kərimovun davamçıları vardı. Onlardan biri də, professor A.N.Rəhimovdur. Ana dilinin tədrisi sahəsində önəmli rol oynayan professor A.N.Rəhimov 50-dən artıq dərslik və kitabçanın, 200-dən artıq məqalənin müəllifidir. Bütüb bu dərslik, kitabça və məqalələr Azərbaycan dilinin tədrisi problemlərinə yönəldilmişdir.

Müasir dövrün ən görkəmli metodistlərindən biri də elmlər doktoru, prof. Bəşir Abbas oğlu Əhmədovdur. B.Əhmədov müasirləri arasında novatorluğu ilə seçilirdi. B.Əhmədov Azərbaycan dilinin tədrisi metodikası elminə dair aşağıdakı monnoqrafiyaları yazıya almışdır:

- Beşinci sinifdə Azərbaycan dili fonetikasının tədrisinə dair, 1960.
- Sadə cümlənin tədrisi prosesində nitq inkişafı üzrə aparılan işlər, 1964.
- Nitq inkişafında müxtəlif fənlərin roluna dair, 1965.
- Ana dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları (V-VIII siniflər), 1967.
- Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları, 1974.
- V sinifdə Azərbaycan dili dərsləri. Dərsliklə işləməyə dair metodik göstərişlər, 1977. (21, s. 12)

Bu monoqrafiyalardan başqa, B.Əhmədovun 1962-2003-cü illərdə bir neçə Azərbaycan dili dərsliyin nəşr edilmişdir. Alimin dərsliklərindən 50 ildən artıqdır ki, Azərbaycan dilinin tədrisi zamanı istifadə edilmiş, hal-hazırda isə onun dərsliklərinə istinad edilərək yeni dərsliklər hazırlanır. Bəşir Əhmədovun Azərbaycan dili metodikasının inkişafında və formalaşmasında rolu danılmazdır.

Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra istər iqtisadi, istər siyasi, istərsə də elm və təhsil sahəsində uğurlu addımlar atmışdır. Bildiyimiz kimi,

Azərbaycan təhsil sahəsində Avropa təhsil sisteminə inteqrasiya edir. Azərbaycan Respublikası öz müstəqilliyini qazandıqdan sonra onun hər bir sahəsində olduğu kimi təhsil sahəsində də dinamik inkişaf özünü göstərməyə başladı. İlk uğurlu addım isə əlifbasının təsis edilməsi oldu.

Bildiyimiz kimi, Azərbaycan dili dünyanın ən zəngin, əlvan və tarixcə qədim dillərindən biridir. Azərbaycan dövlətinin Çar Rusiyaının işğalı altıına düşməsi onun inkişafını müəyyən dövr üçün ləngitdi. Çünki, Sovet dövründə Azərbaycan dilindən istifadəyə qadağa qoyulmuşdur. Məktəbdə istifadə olunan kitab və dərsliklər, dövlət sənədlərinin hamısı rus dilində yazılırdı.

Ümumilli liderimiz Heydər Əliyevin hakimiyyət başına keçməsi və dövlət müstəqilliyini elan etməsi nəticəsində vəziyyət tamamilə dəyişdi. Artıq hər kəsin qorxusu olmadan öz dilində danışmaq hüququ vardı, məktəblərdə tədris Azərbaycan dilində aparılırdı və dərsliklər yenilənirdi.

1995-ci il 12 noyabrda Azərbaycan dili referendum yolu ilə qəbul olunmuş konstitusiyada dövlət dili olaraq qəbul edildi. Ümumiyyətlə, ulu öndər Heydər Əliyev Azərbaycan dilinin Dövlət səviyyəsində qorunması və işlədilməsi üçün 5 fərman vermişdir. Bunlar :

I. 2001-ci il 18 iyun - Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Fərmanı; (3, s. 26)
II. 2001ci il 4 iyul - Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının Tərkibinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı; (3, s. 36)
III. 2001-ci il 9 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı;( 3, s. 38)
IV. 2002-ci 30 sentyabr - Azərbaycan Respublikasında Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu;**(**3, s. 40)

V. 2003-cü il 2 yanvar-“Azərbaycan Respublikasında dövlət dili haqqında ” Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (3, s. 47 )

Bu fərmanların hər biri dilimizin inkişafı, qorunması və inkişafı sahəsində vacib hesab edilir. 2002-ci il 30 sentyabr Prezident H.Əliyev tərəfindən qəbul edilmiş “**Dövlət dili haqqında Azərbaycan Respublikasının Qanunu”nun** bir neçə maddəsinə nəzər salaq:

Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır,onun tətbiqi,qorunması və inkişaf etdirilməsi qayğısına qalır,dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır.
Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır.

**Maddə 1. Dövlət dilinin hüquqi statusu**

1.1Azərbaycan Respublikasının dövlət dili Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan dilidir. Dövlət dilini bilmək hər bir Azərbaycan Respublikası vətəndaşının borcudur.
1.2.Azərbaycan Respublikasının dövlət dili kimi Azərbaycan dili ölkənin siyasi, ictimai, iqtisadi, elmi və mədəni həyatının bütün sahələrində işlədilir.
1.3.Azərbaycan Respublikası dövlət dilinin işlənməsini, qorunmasını və inkişafını təmin edir.

1.4.Azərbaycan Respublikasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarında, dövlət qurumlarında, siyasi partiyalarda, qeyri-hökumət təşkilatlarında (ictimai birlik və fondlarda), həmkarlar təşkilatlarında, digər hüquqi şəxslərdə, onların nümayəndəliklərində və filiallarında, idarələrdə dövlət dilinin tətbiqi ilə bağlı fəaliyyət bu Qanuna uyğun olaraq həyata keçirilir, o cümlədən kargüzarlıq işləri dövlət dilində aparılır.

1.5. Dövlət dilinin tətbiqinin normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1.6. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla (və ya onların nümayəndəlikləri ilə) və xarici dövlətlərin diplomatik nümayəndəlikləri ilə yazışmalar Azərbaycan Respublikasının dövlət dilində və ya müvafiq xarici dildə Azərbaycan dilinə tərcümə olunmaq şərtilə aparıla bilər. (3, s. 40)

**Maddə 3. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsasvəzifələri**

3.0.0. Dövlət dilinin işlənməsi, qorunması və inkişafı sahəsində dövlətin əsas vəzifələri aşağıdakılardır:

3.0.1. Azərbaycan Respublikası Konstitusiyasının və bu Qanunun tələblərinə uyğun olaraq dövlət dili ilə bağlı hüquq qaydalarının müəyyənləşdirilməsi;

3.0.2. Dövlət dilinin tətbiqi işinə, bu dilin işlənməsi və qorunması ilə bağlı qanunvericiliyin müddəalarına riayət olunmasının təmin edilməsi;

3.0.3. Dövlət dilinin inkişaf proqramının hazırlanması və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsinin təmin edilməsi;

3.0.4. Dövlət dilinin saflığının qorunması, dilçilik elminin nəzəriyyəsi və praktikasının inkişafı üçün müvafiq şəraitin yaradılması və tədbirlərin həyata keçirilməsi;

3.0.5. Dövlət dilinin işlənməsi üçün zəruri olan maddi bazanın yaradılması;

3.0.6. Xarici ölkələrdə yaşayan azərbaycanlıların Azərbaycan dilində təhsil almalarına, bu dildən sərbəst istifadə etmələrinə köməklik göstərilməsi. (3, s. 41)

**Maddə 5. Dövlət dilinin təhsil sahəsində işlənməsi**

5.1.Azərbaycan Respublikasında təhsil dövlət dilində aparılır.

5.2. Azərbaycan Respublikasında başqa dillərdə təhsil müəssisələrinin fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilir. Belə müəssisələrdə dövlət dilinin tədrisi məcburidir.

5.3. Azərbaycan Respublikasında ali və orta peşə-ixtisas təhsili müəssisələrinə qəbul zamanı Azərbaycan dili fənnindən imtahan verilməlidir. (3, s. 42)

**Maddə 13. Dövlət dilinin normaları**

13.1. Azərbaycan dilinin orfoqrafiya və orfoepiya normaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. Hüquqi, fiziki və vəzifəli şəxslər həmin normalara əməl etməlidirlər.

13.2. Müvafiq icra hakimiyyəti orqanı 5 ildə bir dəfədən az olmayaraq yazı dili normalarını təsbit edən lüğətin (orfoqrafiya lüğətinin) nəşr olunmasını təmin edir. (3, s. 45)

**Maddə 14. Dövlət dilinin əlifbası**

Azərbaycan Respublikasının dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır.(3, s. 46 )

Yuxarıda göstərilən maddələrdən aydın şəkildə görünür ki, dövlətimiz dil məsələsinə necə böyük məsuliyyət, qayğı və sevgilə yanaşır. Elə buna görədir ki, tarixi keçmişimizə baxdıqda bugün Azərbaycan dili öz inkişafının ən yüksək dövrünü yaşayır və nə qədər ki, təhsil ocaqlarında savadlı kadrlar və mükəmməl yazılmış dərsliklər olacaqsa, bu inkişaf günü-gündən artacaqdır.

Müstəqillik qazandığımız günə kimi, Azərbaycan dövləti və dili düşmənlər tərəfindən istər mənəvi, istərsə də maddi baxımdan şiddətə məruz qalmışdır. Bugün biz müstəqil Azərbaycan Respublikasının uğurlarıyla fəxr edirik və bu uğurlar bizi dünyaya tanıdır, bir növ xarici dövlətlərin maraq nöqtəsinə çevrilmişik.

Azərbaycan  dilində mükəmməl şəkildə danışmaq, yazmaq və oxumaq hər bir Azərbaycan vətəndaşının borcudur. Şagirdlərimizə ana dilimizin gözəlliklərindən ustalıqla istifadə etmək bacarığını formalaşdırmaq isə biz müəllimlərin üzərinə düşür. Bu vəzifəni layiqli şəkildə yerinə yetirməkçün isə biz müəllimlər ilk növbədə öz vətənimizi, dilimizi və peşəmizi sevməli, işimizi məsuliyyətli şəkildə yerinə yetirməliyik.  Azərbaycan dilini və öz dövlətinin milli-mənəvi dəyərlərini gözəl bilən

hər bir Azərbaycan Respublikasının vətəndaşı ölkəmizi dünyada mükəmməl şəkildə təmsil edəcəkdir.

### 1.2. Azərbaycan dilinin metodologiyası və yeni metod anlayışı.

Metodika dərsliklərinə nəzər salsaq, burada "metodologiya" terminindən tez-tez istifadə olunduğunu görə bilərik. Bu terminin mənası heç də bütün şagirdlər tərəfindən başa düşülmür. Yaxşı, sual olunur ki, metodologiya nədir?-Metodologiya haqqında danışarkən bildirməliyik ki, metodologiya hər hansı bir elmin siyasi əsası olmaqla metodlar sisteminin doktrinasıdır.

Yuxarıda qeyd etdim ki, metodologiya elmin siyasi əsasını bildirir. Bu nə deməkdir? Məsələn, biz əvvəl Sovet Rusiyasının daxilində olduğumuz üçün kommunist-bolşevik ideologiyasına məruz qalırdıq. Ölkənin idarəçiliyindən tutmuş dərsliklərdəki nümunələrə qədər hər bir şey kommunist ideyalarını əks etdirməli idi. Lakin Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyasına keçid aldıq. Bu ideologiyaların təhsilə çox ciddi təsirləri var idi. Buna görə də hər hansısa bir elmin metodologiyası onun siyasi məqsədləri üzərində qurulur.

Gəlin tarixə nəzər salaq. Kommunist ideologiyası 20-ci əsrin ən dəhşətli və ictimai həyata çox böyük zərbələr vuran bir hadisəsi idi. Bura təhsil sahəsi də aid idi. Kommunist-bolşevik ideologiyasında insan "insan→heyvan→maşın" olaraq qalan cansız bir varlıq hesab olunurdu.

Kommunist cəmiyyətində hərkəs eyni tipdə olmalı idi. Təhsildə də bu özünü göstərirdi. Şagirdlərin hamısı sanki robot kimi eyni cür danışır, eyni formada düşünürdülər. Heç bir şagirdin demokratik düşüncəsi olmurdu. Ümumiyyətlə, həmin dövr dərslikləri belə bu ideologiyanın prinsipləri əsasında yazılırdı. Bilirik ki, mühafizəkarlıq elmi geri atan bir məvhumdur. Məhz bu mühafizəkarlıq cəmiyyətin

inkişafdan geri qalmasına səbəb olurdu. Cəmmiyyətdə dar qəliblər olduğu üçün elm və incəsənət də geridə qalırdı.

Həmin dövrdə yaşayan şair və yazıçıları proletar şeirlər yazmağa vadar edirdilər. 1937-ci il represiyaları hər birimiz xatırlayırıq. Bu represiyaların səbəbi cəmiyyətin qaymaq təbəqəsini, yəni savadlı şəxsiyyətləri aradan qaldırmaq və cəmiyyəti heyvan sürüsü kimi yetişdirmək idi.

Təbii ki, xalqımız bu vəhşiliyi unutmayıb və heç vaxt da unutmayacaqdır. Həmin dövr metologiyası təhsilimizdə o qədər dərin izlər buraxmışdır ki, hələ indiki dövrdə də bəzi məqamlarda özünü göstərir. Müəllimlər çalışmalıdırlar ki, robot kimi eyni düşüncəni təkrar edən gənclər yox, demokratik düşüncəli gənclər yetişdirsinlər.

Qeyd etdik ki, XIX əsrə kimi, Azərbaycanda təhsil əsasən, molaxanalar və mədrəsələrdə verilirdi. Mollaxana hazırlıq mərhələsi hesab olunur. Mollaxanalar indiki hazırlıqlar kimi idi. Molla müəyyən məvacib qarşılığında uşaqlara bilik verirdi. Verilən bilik heç də xeyir vermir, əksinə şagirdləri cəhalətə sürükləyirdi. Mollaxanaların verdiyi biliklərə Quranın bir hissəsi və ərəbcə kiçik mətnlər daxil idi. Bu mətnlər şagirdlərə əzbər öyrədilirdi. (1, s. 4)

Bu dövrdə Azərbaycanda əsas tədris metodu "höccələmə" ( hərf-heca ) idi. Bu metod feodalizm dövrünə məxsus idi. Molla şagirdlərə hərflərin adlarını öyrədir, lakin hansı səsi çıxardığını demirdi. Nəticə olaraq, şagirdlər oxumağı öyrənə bilmirdilər. Bu da "Höccələmə" metodunun tədris işində törətdiyi çətinliklərin sübutu idi. Azərbaycanda savad təlimi XIX əsrin sonuna kimi bu üsulla aparılmışdır.

Azərbaycan dilinin metodologiyasının inkişafında "Vətən dili" dərsliyinin yeri danılmazdır. Bilirik ki, ilk vaxtlarda Azərbaycan dilinə aid dərslik problemi vardı. Azərbaycanda ilk dərs vəsaitinin yaranması məhz Qori müəllimlər seminariyasının adı ilə bağlıdır. Qori müəllimlər seminariyası Azərbaycanda nəinki yeni dərsliyin yaranmasında rolu oldu, həmçinin yeni nəsil ziyalıların yetişməsində, yeni mədəniyyətin formalaşması və yayılmasında, yeni ictimai fikrin formalaşmasında, daha sonralar isə Azərbaycanda intibahın baş verməsində rolu olmuşdur.

Mirzə Şəfi Vazeh Tiflisdə dərs dediyi müddətdə, Mirzə Kazımbəy Moskvada tələbəsi ilə birlikdə "Kitabi-türki" dərsliyi üzərində işləyirdi. Lakin bu dərslik XIX əsrin 60-70-ci illərində köhnəldiyinə görə artıq Azərbaycan dili dərsləri üçün dərslik vacib bir məsələyə çevrilmişdir. (1,s. 10)

1881-ci ilin yanvarında Qafqaz canişininin bir təlimatına görə, Cənubi Qafqazda yaşayan xalqlar dərslərini ana dilində almalı idilər. Buna görə də, Qori müəllimlər seminariyasının Azərbaycan bölməsinin ilk inspektoru Aleksandr Osipoviç Çernyayevski 1882-ci ildə topladığı materiallara əsasən "Vətən dili" dərsliyinin I hissəsini, 1888-ci ildə isə Səfərəli bəy Vəlibəyovla birlikdə II hissəsini dərc etdirir. Dərslikdə Həsənəli xan Qaradağinin tərcümələri, orijinal əsərləri, Firudin bəy Köçərli, Qasım bəy Zakirin, Abbas Səhhət, Mirzə Əbdürrəhim bəy Talıbzadə, Mustafa Arif Şıxlınsinin, Molla Vəli Vidadi əsərləri daxil edilmişdir. (10, s. 7)

"Vətən dili" dərsliyi qırx ilə yaxın bir müddətdə Azərbaycanda istifadə edilmiş və minlərlə Azərbaycan ziyalısının inkişafında, təhsil almasında önəmli rol oynamışdır. Bu dərsliyin əsas qayəsi uşaqlara Azərbaycan dilini tədris etmək təşkil edirdi.

Dərsliyin birinci hissəsi **Sövti** (səsli) metodu əsasında yazılmışdır. Bu metoddan istifadə dərsliyin tədris-təhsil prosesini asanlaşdırmasına kömək etmişdir. Bu hissə birinci sinif şagirdləri üçün nəzərdə tutulmuşdu. Dərsliyin birinci hissəsində İ.A.Krılovun "Tülkü və üzüm", "Xoruz və mirvarid danəsi", "Uşaq və ilah" təmsillərinin tərcümələri, K.D.Uşınskinin etdiyi "Siçanlar" hekayəsinin tərcüməsi və "Uşaqlar yazda" adlı şeiri verilirdi.

Dərsliyin ikinci hissəsi isə iki-üçüncü siniflər üçün nəzərdə tutlmuşdur. Burada müəlliflər yeni qaydalardan və durğu işarələri tətbiq etmişlər. Bu hissədə də müxtəlif təmsil və əsərlərdən istifadə olunmuşdur. Ümumiyyətlə, bu dərslik Azərbaycan dilinin mənimsədilməsində böyük rol oynamışdır. Metodik baxımdan yanaşsaq, "Vətən dili" dərsliyinin birinci hissəsinin Sövti metodu ilə yazılmasının, ikinci hissəsində isə

durğu işarələri və yeni qaydalardan istifadə edilməsinin tədrisi nə dərəcədə asanlaşdırmasını göstərir.

Bildiyimiz kimi, XVII əsrdə sinif-dərs sistemi yaradılmışdır. Bu dövrdəəyani-illustrativ, proqramlaşdırılmış, problemli, alqoritmləşdirilmiş, differensiallaşdırılmış təlim və bu kimi bir çox təlim formaları yaranmışdır. Lakin bunların heç biri vətəndaşlıq hüququ alacaq səviyyəyə çatmamışdır.

Əsrlər boyu cəmiyyətə təhsil vermək üçün yüzlərlə təlim metodlarından istifadə edilmişdir. Bunlara illüstrativ-əyani, evristik, tədqiqatçılıq, reproduktiv, praktik, problemli axtarış, sözə əsaslanan, müstəqil iş, məntiqi, şagirdlərin təlim-idrak fəaliyyətinin stimullaşdırılması və motivləşdirilməsi, nəzarət və özünənəzarət və s. kimi onlarla metodlar aiddir.

Ənənəvi təlim prosesində 50-dən artıq metod və üsullar mövcud idi. Bu təsnifatda perseptiv, idarəedici, məntiqi, diaqnostik və kibernetik olmaqla 5 yanaşmadan istifadə edilmişdir. Ənənəvi təlim metodlarında öyrədən və öyrənənin konkret xarakteri müəyyən edilmişdir. Ənənəvi təlim əsasən imperativ xarakter daşıyırdı. Bu o demək idi ki, təlim prosesi şagirdlərin şəxsiyyət xüsusiyyətləri, tələbat və ehtiyacları nəzərə alınmadan həyata keçirilirdi.Bu təlim metodunda şagirdə müəllimin tələblərinə tabe edilən obyekt kimi baxılırdı.

Ənənəvi təlim metodunda əsas diqqət bilik və bacarığın mənimsədilməsinə ayrılırdı, müəllim və şagird münasibətlərində avtoritat üslub üstünlük təşkil edirdi, dərsdə demək olar ki, heç bir dəyişiklik olmurdu, yəni həmişəki kimi adi və standart qaydada aparılırdı, əsas funksiyanı şagird deyil , məhz müəllim özündə cəmləşdirirdi.

Ənənəvi təlim metodunda şagirdlərin idrak fəaliyyətinin təşkilində, bilik, bacarıq və vərdişlərin mənimsənilməsində zəifliyini şahidi olduq və 60-cı illərdən artıq yeni təhsil konsepsiyalarına keçid edildi. Təlim yalnız o halda səmərəli sayıla bilər ki, o təlim şagirdlərintəfəkkürününinkişafınayönəlsin, aktiv iştirakını təmin etsin, düşünmə qabiliyyətini inkişaf etdirsin. Bütün bu meyarlara məhz fəal-interaktiv təlim metodu uyğun gəlirdi.

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra bütün sahələrdə yenilikçi mövqedən çıxış edirdi. Artıq müstəqil dövlət olaraq öz dilimiz, dövlətimiz, bayrağımız, himnimiz var idi. Müstəqil Azərbaycan Respublikasının əsas ideyası azərbaycançılıqdır. Azəraycançılıq birdən-birə formalaşmayıb, tarixən formalaşaraq bugünümüzə qədər mükəmməl şəkildə gəlib çatmışdır. Azərbaycançılıq dedikdə, milli-mənəvi dəyərlər, dil, din, mədəniyyət və s. nəzərdə tutulurdu. Ulu öndər Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməyə nail oldu.

Azərbaycançılıq milli, islami-əxlaqi, dünyəvi dəyərləri, Şərqlə Qərbin mədəniyyətlərin sintezini, türkçülük, avropaçılıq meyillərini, tərəqqiçiliyi özündə birləşdirən ideologiyadır. Bu ideologiyanın əsas xüsusiyyəti də milli ənənəni gələcək nəslə ötürməkdir. Azərbaycan dili də azərbaycançılığın əsas komponenti hesab olunur. Çünki, ana dili milliliyin əsas və əhəmiyyətli vasitəsidir.

Azərbaycançılıq ideologiyasının yuxarıda qeyd etdiyim komponent və xüsusiyyətləri metodologiyamızın əsasını təşkil edir. Azərbaycanda təhsil sahəsi azərbaycançılıq ideologiyasına əsaslanaraq, milli-mənəvi dəyərlərin, əxlaqi düşüncələrin, vətənpərvərlik hisslərinin şagirdlərə aşılanmasına xidmət edir.

Göründüyü kimi, metodologiya yalnız tədrisdə istifadə olunan metodlar sistemi deyil, geniş anlamda söyləsək fəaliyyətin siyasi, sosial, mədəni, iqtisadi və mənəvi ünsürlərini özündə cəmləşdirən əsasdır.

Metodologiya Azərbaycanın Dövlət Strategiyaları əsasında qurulur. Bu strategiyaların metodoloji əsası isə strateji istiqamətlər təşkil edir. Aşağıda bir neçə strateji istiqamətə diqqət edək:

1. Bütün təhsil sisteminin kurrikuluma əsaslanaraq yaradılmasına yönəltmək.

2. Çalışanların müasirləşdirilməsi. Bəs müasir kadrlar necə olmalıdırlar? Bu sualın cavabı belədir ki, dərsdə yeni təlim metodlarından doğru şəkildə istifadə etmək, İKT-dən istifadə bacarığının olması, şagirdləri innovativ sistemlərlə qiymətləndirmə bacarığı kadrların müasirliyinin əsasını təşkil edirdi.

3. Təhsilimizin Avropa təshil məkanına inteqrasiya olunması. Avropa ölkələrindən daim yeni metodlar və texnologiyalar mənimsəməklə təhsilin inkişafına yol açmaq.

Kurrikulum sistemi tətbiq edilməyə başladığı ilk gündən metodologiyada "öyrədənləri öyrədənlər" anlayışı meydana gəldi. Bu anlamda təhsilimiz uğurlu nəticələr əldə etməsinə baxmayaraq, bəzən pedaqoji cəhətdən zəif olan gənclərin "öyrədən" kimi cıxış etməsi yalnız formal xarakter daşıyırdı. Bu cür təcrübəsiz müəllimlər yalnız İKT-dən və metodlardan istifadə etməklə kifayətlənməməli idilər, onlar həmçinin dərs zamanı pedaqoq-psixoloq olmaqla müasirliyi, varisliyi qorumalı, dərs zamanı yaranan situasiyaları metodoloji cəhətdən dəyərləndirməyi bacarmalı idilər.

İndi isə gəlin metodologiyada çox istifadə olunan "fəal-interaktiv dərs" haqqında söhbət açaq. Təhsilin keyfiyyəti o zaman yüksək olur ki, təlim metodları öyrənənlərin təfəkkürünün, dərketmə prosesinin genişləndirsin və bilikləri fəal şəkildə mənimsəməsini təmin edə bilsin. Bu məqsədlə fəal-interaktiv metodlardan istifadə olunur. Fəal dərslərdə ən başlıca amillər aşağıdakılardır:

- Fəal dərsdə müəllim problemli vəziyyət yaradır, problemin həll olunmasında isə öyrənən fəal iştirak edərək özünün tədqiqatçılıq qabiliyyətini formalaşdırır;
- Fəal dərs zamanı yaradılan problem cəlbedici olmaqla öyrənənlərin dərketmə imkanlarına uyğun və araşdırılması asan olmalıdır;
- Fəal dərs öyrənənləri birgə fəaliyyətə və əməkdaşlığa çağırır;
- Fəal dərs dərketmə qabiliyyətini formalaşdırır və dərsin nəticəyönümlüyünə təminat verir.

Fəal təlim İKT-dən istifadəyə geniş yer verir. İnternet resursları dərsin daha əyani və rahat keçməsinə şərait yaradır. Şagirdlər dərs üçün lazım olan informasiyalar əlçatan olur.

Bildiyimiz kimi, fəal dərsdə müəllim məsləhətçi kimi , şagird isə tədqiqatçı kimi çıxış edir. Müəllimin bir fasilitator kimi üzərinə düşən əsas vəzifə öyrənənləri fəallaşdırmaqdan ötrü diskussiyalar , mübahisələr, məntiqi ümumiləşdirmələr və s. aparmaqdır. Fəal dərsdə bunun üçün qeyri-standart yöntəmlərdən istifadə olunur. Nümunə olaraq , fantaziya dərsləri, işgüzar oyunlar, rollu oyunlar, müsabiqə dərsləri, dialoq formalı dərslər və s. göstərmək olar.

Müasir təhsil ocaqlarında tələbə və şagirdlərin hazırlanmasını yaxşılaşdırmaq üçün interaktiv tədris formasının tətbiqi ən vacib sahələrdən biridir. İndiki zamanda bir müəllimin öz ixtisası sahəsində təcrübəli olması və öyrənənlərlə dolu bir tamaşaçıya böyük bir məlumat bazası köçürməsi kifayət etmir. Təhsillə bağlı olan yeni fikirlər bir çox müəllim tərəfindən qəbul edilməsə də, günümüzdə aktual olan yanaşmalardan istifadənin müəllim işinə kömək etmək üçün ən təsirli üsul olduğunu təsdiq edən məlumatları gözardı etmək olmaz. Sadə ifadələr şagirdlərin öyrənmə prosesində aktiv iştirakını təsis edir, onların öyrənilmiş materialları daha asan şəkildə başa düşmək, mənimsəmək və xatırlaması üçün şərait yaradır. Bundan əlavə, əsas metodoloji yeniliklər tədrisin interaktiv metodlarından istifadə ilə bağlıdır.

Təlim müddətində, ilkin olaraq, şagirdlər təhsil materialları ilə tanış olduğu metod və üsullara diqqəti yönəltmək, dərsdə fəal olmaq, nailiyyət qazanmaq və bu səbəbdən davranışlarını motivasiya etməyə təşviq olunur. Bütün bu tələblər interaktiv tədris metodları ilə bir bütünlük təşkil edir. Sual oluna bilər ki, metod nedir? - Metod – dərketmə prosesinin həyata keçirilməsi üçün istifadə olunan üsuldur.

İnteraktiv tədris metodlarından istifadəyə əsaslanan təlim prosesi sinfin bütün şagirdlərini istisnasız öyrənmə prosesinə daxil olunmasını nəzərə alaraq təşkil edilir. Şagirdlərin hər birinin iş zamanı bilik, fikir və fəaliyyəti onların öz tövhəsi olsada, bu bilik və fikirlərin mübadiləsi onların qarşılıqlı inkişafına gətirib çıxarır. Layihə işi, rol oyunları, klaster və bu kimi müxtəlif metodlardan istifadə edərək fərdi, cüt və qrup işi təşkil olunur.

İnteraktiv təlim metodları qarşılıqlı fəaliyyətə, qrup işinə güvənməyə əsaslanır. Müasir dərslərdə elə bir təbii rabitə mühiti yaradılmışdır ki, bu da dərslərin sərbəstlik,şagirdlərin qarşılıqlı əlaqəsi, onların hüquqlarının bərabərliyi, birgə fəaliyyət və biliklərin toplanması, qarşılıqlı qiymətləndirmə baxımından təlimdə nailiyyət qazandırır. Metodologiyanın tərifini verərkən qeyd etdik ki, metodologiya metodlar sistemidir. Bəs müasir dövrdə hansı metodlardan istifadə olunur?

Fəal dərs zamanı yeni təlim metodlarından istifadə edilir. Bu təlim metodları bəzi ədəbiyyatlarda interaktiv metod, bəzi ədəbiyyatlarda isə fəal-interaktiv metod adlandırılır. Fəal-interaktiv təlim metodu fəaliyyətin elə bir idraki və kommunikativ formasıdır ki, dərsdə keçirilən mövzunun öyrənilməsi zamanı hər bir şagird fəaliyyət göstərir. Bu tədrisin elə bir prosesidir ki, burda təkcə müəllimlə şagird deyil, həmçinin şagirdlər öz aralarında da dialoqa girirlər.

İnteraktiv metodlardan istifadə öyrənənlərə biliklərin hazır formada təqdim olunmasına deyil, sırf öyrənənlərin özlərinin araşdırma qabiliyyətini işə salmaqla yeni bilik əldə edilməsinə əsaslanır. Bilirik ki, interaktiv təlim metodları yeni texnologiya hesab edilir. Bu təlimin ən öndə gedən cəhətlərindən biri isə odur ki, metodlar konservatizmdən kənardır. Elə ona görədir ki, ən sakit, utancaq və melanxolik xüsusiyyətlərinə malik olan şagirdin belə aktivləşməsinə yardımçı olur.

Qeyd etdik ki, fəal təlimə keçməzdən əvvəl ənənəvi dərs formasından istifadə olunurdu. Bunların arasında kəskin fərqlər vardı. Nümunə olaraq deyə bilərik ki, ənənəvi dərsdə əsas dominant rol oynayan müəllim, fəal dərsdə məsləhətçi simasında çıxış edirdi, ənənəvi dərs zamanı müəllim şagirdləri dərsə cəlb edir, fəal dərsdə isə müəllimin əsas vəzifəsi öyrənənlərin təşəbbüsü üçün şərait yaratmaq təşkil edir.İnteraktiv metodlarını səciyyələndirən əsas cəhət də elə fəallıq, təşəbbüskarlıq və birgə fəaliyyətdir.

Təbii ki, istər ənənəvi təlimin, istərsə də fəal təlimin nöqsanları vardır. Ənənəvi dərslərdə əsas səhvlər nəzəri biliyin üstünlük təşkil etməsi, öyrənənlərin passivliyi, dərslərin həlli yollarının əsasən hazır şəkildə şagirdə verilməsi və s.təşkil edirdi.

İnteraktiv dərsdə əsas çətinlik olaraq bunu qeyd edə bilərik ki, müəllim fasilitator kimi çıxış etməsinə baxmayaraq, dərsə hazırlıq üçün çoxlu əmək sərf edir, həmçinin dərsin planlaşdırılması da  mürəkkəb olurdu.

Təlim təcrübəsində, tədris materialının qavranılmasının dərəcəsi: passiv, aktiv, interaktiv, heuristik və s. Öyrənmə üsullarının müəyyənləşdirilməsinə dair digər yanaşmalar mövcuddur. Bu təriflər daha da aydınlaşdırılmasını tələb edir . Öyrənmə prosesi passiv ola bilməz və həmişə tələbələr üçün bir evrika deyildir. Aşağıdaki sxemlərdə passiv və aktiv metodların ifadəsi daha aydın göstırilmişdir:






Yuxarıda göstərilən bu sxemlər hansı metodun daha müasir, daha əlverişli və şagirdlərə daha faydalı olması haqqında aydın təsəvvür yaradır.

Ümumiyyətlə, yüksək səviyyədə peşəkar olan, öz işini sevən müəllim təbii ki, dərsində uğurlu olacaq və gələcəy üçün özü kimi peşəkar və savadlı kadrlar hazırlayacaqdır. İnteraktiv təlim metodlarının növləri və istifadə olunması haqqında " **Azərbaycan dili tədrisində istifadə olunan fəal-interaktiv təlim metodları**" başlıqlı yarımfəsildə daha geniş söz açacağıq.

## 1.3. Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyası.

Dünyanın istənilən inkişaf etmiş ölkəsində olduğu kimi, Azərbaycanda da təhsil cəmiyyətin ən lazımlı və ən vacib sahəsidir. Təhsil milli məqsəd və mənafelərə xidmət etməlidir. Bütün digər sahələrdə olduğu kimi , təhsil sahəsində də inkişaf göz önündədir. Başlıca məqsəd milli-mənəvi dəyərləri əsas tutaraq beynəlxalq standartlara uyğun olan təhsilin yaradılmasıdır. Bu yolda Azərbaycan dövlət olaraq öz sözünü artıq deyir. Bir nüansı da qeyd edək ki, cəmiyyətin hərtərəfli inkişafı yalnız yüksək dərəcəli bilik əldə etmiş insanlar tərəfindən həyata keçirilə bilər. Bunun başqa həlli yolu yoxdur.

Bildiyimiz kimi, əsrimiz kompüter əsridir. Elm və texnikanın bu dərəcə inkişaf etmiş bir zamanında təhsil sahəsində geridə qalmaq olmaz. Hal-hazırda ölkəmizin təkcə paytaxtında deyil, eyni zamanda ucqar rayonlarında da yeni məktəblər açılır, texniki avadanlıqlarla təchiz edilir. Bu təhsil ocaqlarının hər birində müasir tədris üsullarından istifadə olunur. Təbii ki, təhsil sahəsi digər sahələrdən əsaslı şəkildə fərqlənir. Təhsil sahəsində buraxılan nöqsanlar özünü gec göstərir və təbii ki, onların düzəldilməsi də uzun zaman alır.

Ümummilli lider Heydər Əliyevin söyləyirdi: "Azərbaycan xalqı irəlidə gedən xalqların arxasınca gedərək bəşəriyyətin əldə etdiyi elmi, texniki nailiyyətlərdən istifadə etməyə çalışıbdır. Bunun üçün də birinci növbədə öz milli təhsilini yaradıb...

Bu, XX əsrdə bizim əldə etdiyimiz ən böyük nailiyyətdir. Çünki əgər xalqımız təhsillənməsəydi, savadlanmasaydı, nəhayət Azərbaycanın özünün milli ali təhsil müəssisələri, institutları, universitetləri yaranmasaydı, indi biz müstəqil olaraq bu cür böyük imkanlara malik ola bilməzdik...” (49)

2001-ci ildə Azərbaycan Respublikasının Avropa Şurasına üzv olması nəticəsində ölkəmizin Avropaya inteqrasiyası sürətləndi. Azərbaycan dövləti Avropaya inteqrasiya edərək ali təhsil pilləsinin inkişaf dinamikasını dünyada gedən proseslərlə müəyyənləşdirməyə başladı. Bildiyimiz kimi, təhsilimizin Avropa təhsil sisteminə inteqrasiya edilməsində ən böyük addım Boloniya sisteminə qoşulmaq oldu. Avropanın ali təhsil pilləsinə inteqrasiya, əsasən, Boloniya haqqında çıxan qanunun aşağıdakı müddəalarını yerinə yetirilməklə mümkün olacaqdı:

- İkipilləli ali təhsilə keçilməsi;
- İxtisas və diplomların bir-birini qarşılıqlı tanıması;
- Kredit sisteminə keçid;
- Təlim və təhsilin keyfiyyətinə nəzarət olunması;
- Akademik mobilliyin təchiz olunması;
- Ali təhsili bitirdikdən sonra məzunların işlə təmin olunması.(50)

Dünya ölkələrində tətbiq edilən Boloniya sisteminin tarixi elə də qədim sayılmır. Bu prosesin ilk rəsmi yaranması tarixi 1999-cu il 19 iyun hesab olunur. Həmin tarixə nəzər salsaq görərik ki, 29 Avropa ölkəsinin nazirləri Boloniya şəhərində toplaşaraq “Boloniya” və “Avropa Ali təhsil məkanı” bəyannamələrini qəbul edirlər. Boloniya sistemi təkcə bu 29 ölkə deyil, digər ölkələr üçün də açıqdır.

Ümumiyyətlə, Boloniya sistemi təhsil siteminin Avropa təhsilinə uyğun olaraq yaxşılaşdırılmasına xidmət edir. Boloniya sistemində ali təhsilin üç pilləsi vardır:

1. Bakalavr ;
2. Magistratura;
3. Doktorantura. (50)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 22 may 2009-cu ildə verdiyi Sərəncamla 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramını təsdiqləyərək təhsilin dövlət siyasətində ən mühüm yerdə olmasını göstərmişdir. Sərəncamda qarşıya bir sıra məqsədlər qoyulmuşdu. Bunlar aşağıdakılardan ibarətdir:

- Ali təhsili pilləsinin Avropa təhsil məkanına inteqrasiya edilməsi prosesini sürətləndirmək;
- Ali təhsilin Boloniya sisteminə uyğunlaşdırılması;
- Yüksək səviyyəli kadrlara olan tələbatı aradan qaldırmaq;
- Xalqa müasir standartlara cavab verən ali təhsil almaq imkanı yaratmaq.

Müasir dövrdə Azərbaycan bir çox sahədə yeniliklərə imza atdığı kimi təhsil sahəsində də yenilikçiliyin tərəfdarı idi. Bu məqsədlə Azərbaycan təhsil sahəsinin Avropaya inteqrasiyasına başlanıldı və Azərbaycan da digər ölkələr kimi Boloniya prosesinə qoşuldu. Boloniya sistemi ali təhsil sahəsini əhatə edirdi və əsas missiyası o idi ki, yüksək dərəcəli, peşəkar kadrlar hazırlasın.

Azərbaycan ilk dəfə Boloniya sisteminə 2004-cü ildən qoşulmağa başladı və 2005-ci ilin 19 mayında Norveçdə Boloniya sisteminə qoşuldu. Avropa təhsil sistemində tətbiq olunan kredit sisteminə qoşulmaq, attestasiya və akkreditasiya sistemlərinin tətbiq edilməsi Azərbaycan dövlətinin bu prosesə qoşulmasının ən mühüm məqsədi idi. (50)

Boloniya sisteminə qoşulmaq Azərbaycan təhsil sistemi üçün hələ çox erkən idi. Çünki, bunun üçün müasir standartlara cavab verən kadrlar olmalı, bütün təhsil ocaqları müasir texnologiya ilə təchiz olunmalı idi. Demək olar ki, bu sistemə qoşulandan sonra biz hələ də Boloniya sisteminin önəm və mahiyyətini tam dərk edə bilməmişdik. Lakin zamanla Boloniya sisteminin mahiyyətini qavradıqca artıq bu sistem haqqında müsbət fikirlər yaranırdı.

Boloniya sistemi ali təhsil ocaqlarında var olsa da, praktiki cəhətdən tətbiq olunmur. Buna bir çox şey səbəb ola bilər. Bugün Boloniya sistemini hələ də qavraya

bilməyən müəllimlər vardır və onlar hələ də Sovet təhsil sisteminin tərəfdarıdır. Bu səbəbdən Azərbaycanda Boloniya sistemini təsdiq edən yeni kadrlar yetişdirilməlidir. Lakin buna baxmayaraq, Boloniya sisteminə uyan və onu çox gözəl şəkildə tətbiq edən müəllimlər də vardır.

Boloniya sisteminə qoşulduqdan sonra bu sistemin mahiyyətinin izah edilməsi məqsədilə seminarlar keçirilir və digər ali təhsil ocaqlarının nümayəndələri, dekanları seminarlara dəvət olunurdu. Boloniya sisteminin praktikada tətbiqi zamanı çoxlu çətinliklər yaranırdı. Hərtərəfli və geniş təbliğat aparılsa da bu proses Avropada olduğu kimi Azərbaycanda dərk edilmirdi və müasir dövrdə də bununla bağlı problemlərin yaranması hələ də davam edir.

Təbii ki, Boloniya sisteminin tətbiqinin ölkəmizə müsbət cəhətləri də oldu. Kredit sisteminə qoşulmamız bunun ən bariz nümunəsidir. Lakin demək olar ki, Boloniya siteminin kredit sistemindən başqa bir xeyri olduğunu demək çətindir.

Ümumiyyətlə qeyd edim ki, Boloniya sisteminə qoşulan ölkələrə yalnız tövsiyyələr verilir, hansısa şərtlər qoyulmurdu. Avropanın bir çox ölkəsində təhsil sahəsində sərbəstlik vardır və xüsusi tədris planı yoxdur. Misal üçün , Amerikada ali təhsil ocaqlarına nəzarət edən hər hansı bir qurum yoxdur və onlar öz təhsillərinin güclü olmasının səbəbini bir növ sistemsiz olmasında görürlər.

Boloniya sisteminin əsas prinsipi təhsilin keyfiyyətidir. Təhsildə bu keyfiyyəti almaq üçün standartlaşdırmadan uzaq durmaq lazımdır. Çünki, məsələn, Azərbaycan dili tədrisində yeniliklər baş verir və bu yeniliklərdən tədris planında heç bir şey yazılmır. Bu zaman öyrənənlərin də bu haqda məlumatı olmayacaq və ya gec məlumat alacaqlar. Buna görə də tədris planı standart olmamalı, əksinə dinamik olmalı, yeniliklərə daim açıq olmalıdır. Bu səbəblərə görə təhsil sistemimiz tam şəkildə Boloniya sisteminə qoşula bilmir. Ancaq onu da qeyd edim ki, Avropanın ali təhsil ocaqlarıyla tələbə mübadiləsinin aparılması, diplomların tanınması kimi məsələlərdə müsbət nəticələr əldə edilib. Bu sahədə uğur qazanmaq üçün dərsliklər dəyişilməli, alim, professor, pedaqoq və müəllimlər yenilikçi olmalıdırlar.

Bəzən Boloniya sistemindən danişarkən onu yalnız kredit sisteminin tətbiqi kimi anlayırıq. Lakin bu yanlışdır. Boloniya sistemi ali təhsilin bütün cəhətlərini özündə birləşdirən və təhsilimizdə çoxlu sayda dəyişikliklərə gətirən mürəkkəb xarakterli bir sistemdir. Avropa ölkələrinin bir çoxunda kredit sistemlərinin tətbiqində fərqlər vardır və bu fərqlərin aradan qaldırılması sahəsində işlər görülür. Azərbaycanda da kredit sisteminin tətbiqində cətinliklər mövcuddur. Bu çətinliklərin aradan qaldırılması üçün kredit sisteminin mahiyyətini tamamilə dərk etmək, kredit sisteminin ona qədər olan qiymətləndirmə sistemindən fərqini müəyyənləşdirmək, bu sistemin tətbiq olunması zamanı yerli xüsusiyyətləri və ənənələri nəzərə almaq lazımdır.

Boloniya sistemində mühüm yeri olan anlayışlardan biri də akademik mobillikdir. Sual yaranır ki, bəs akademik mobillik nədir?

Akademik mobillik odur ki, tələbə milli qapalılığı aradan qaldıraraq Ümumavropa mühitinə keçmək üçün bir ali təhsil ocağından digərinə keçir. Akademik mobilliyin təmin olunmasında vahid kredit sisteminin yaradılması mühüm əhəmiyyət kəsb edir. İlk növbədə tələbə müəyyən səbəblərə görə qəbul olduğu universitetdə ala bilmədiyi təhsili əldə etmək imkanına sahib olur. Boloniya sisteminin tövsiyyələrindən biri də elə budur ki, tələbə imkanı çərçivəsində bir smestrlik də olsa digər ali təhsil mərkəzində və ya yaxşı olardı ki, xarici universitetlərdən birində dərs alsın.

Ümümavropa ali təhsil ocaqlarında ümumi mühitin yaradılması akademik mobilliyin məqsədlərindən biridir. Universitetlərdə akademik mobilliyin olması məzunların Avropa ölkələrində işə düzəlməsini asanlaşdırır. Akademik mobillik Boloniya sisteminin bütün müddəalarının tam şəkildə təchiz edilməsini tələb edir. Çünki, bütün bu müddəalar olmadan akademik mobillik də ola bilməz. Boloniya sisteminin tələbləri yalnız kompleks şəklində tətbiq edilməklə istənilən nəticəni verə bilər. Azərbaycanda akademik mobilliyin inkişafı üçün ilk növbədə ölkədaxili ali

təhsil müəssisələrindən başlamaq lazımdır ki, bu sahədə təcrübə əldə edilsin. Sonradan artıq xarici ali təhsil ocaqlarıyla da mübadilələr aparmaq olar.

Təbii ki, Boloniya sisteminə qoşulmaq Azərbaycan təhsilinin dünyaya inteqrasiyası və inkişafı üçün əsas zəmin rolunu oynadı. Lakin yuxarıda da qeyd etdiyim kimi, Boloniya sisteminin tələblərinə bugün də tam şəkildə riayət edilmir. Bu sahədə öz həllini gözləyən problemlər vardır. Bunlar aşağıdakılardır:

❖ Azərbaycanın təhsil sistemində hələ də akkreditasiya prinsipləri müəyyən olunmayıb. Xarici ölkələrdə fəaliyyətdə olan akkreditasiya agentlikləri ilə ibtidai səviyyədə olan əlaqələr saxlanılır. Bu da onu göstərir ki, əgər ali təhsil ocaqlarının reytinqləri müəyyənləşməyibsə, yüksək keyfiyyətli və peşəkar kadr hazırlayan universitetlər də bəlli deyildir. Yüksək keyfiyyətli kadr hazırlayan universitetlərin ünvanı bəlli olmadığı halda, cəmiyyətimiz yerli universitetlərin diplomundansa, reytinqi yüksək olan xarici universitetlərdən gələn diplomu əsas tuturlar.

❖ Təhsil sistemndə keyfiyyətin təmin edilməsi vacib problemlərdən biridir. Bu baxımdan Azərbaycan Boloniya sisteminə qoşulduqdan sonra Avropanın keyfiyyət meyarlarına əsaslansa da, milli dəyər və resurslarımızı da nəzərə alır. Bəzi universitetlərdə və institutlarda problem mərkəzləri yaradılmağına baxmayaraq, təhsildə hansı keyfiyyət meyarlarının tətbiq olunması məsələsi hələ də bəlli deyil.

❖ Avropa standartlarında çalışılır ki, insanlar 26-27 yaşına qədər Boloniya sisteminin hər üç pilləsində təhsili bitirmiş olsunlar. Çünki, onlar gənc və enerjili kadrlara ehtiyac duyurlar. Lakin Azərbaycanda buna o qədər də riayət olunmur. İlk növədə hərbi xidmət buna mane olur və təhsildə fasilənin yaranmasına gətirib çıxarır. Çalışmaq lazımdır ki, tələbəyə 6 il bakalavr təhsilini bitirmək üçün vaxt verilsin və bu müddətdə hərbi xidmətə cəlb olunmasın. Təbii ki, 6 il ona görə müəyyən olunur ki, hər tələbə 4 ilə ali təhsilini başa vura bilmir. Düzdür bütün insanlar hüquq qarşısında bərabər olsalar da, onlar əqli, fiziki və maddi vəziyyətlərinə görə heç də bərabər olmurlar. İkinci problem bakalavr və magistratura pillələri arasındakı fasilədə baş

verir. Belə ki bakalavrı bitirən tələbə hərbi xidmətə cəlb olunur. Müşahidələr göstərir ki, hərbi xidməti başa vurduqdan sonra oğlanların maraqları dəyişir. Buna görə də təhsil pillələri arasında zaman fasiləsi olmamalıdır. (51)

Ümumiyyətlə, Azərbaycanın təhsil sitemində bugün də problemlər mövcuddur. Bu problemlər nə dünənin, nə də bugünün problemi deyil. Bu ölkəmizin 200 ildən artıq başqa dövlətlərin asılılığında qalmasının nəticəsidir. Dövlətimiz müstəqillik qazandıqdan bugünə kimi bu problemlərlə mübarizə aparmış və onların aradan qaldırılması yönündə islahatlar aparılmışdır.

Azərbaycan təhsil siteminin Avropa təhsil məkanına inteqrasiyası dövlətimizin uğurlu gələcəyi üçün atılmış ən gözəl addımlardan biri oldu. Təsadüfi deyil ki, indiki dövrdə gənclərimiz Avropanın inkişaf etmiş ölkələrində öz təhsili, mədəniyyətilə ölkəmizi layiqli şəkildə təmsil edirlər. Azərbaycan dövləti gələcəyi olan uşaq və gənclərin təhsilinə, təlim və tərbiyəsinə xüsusi qayğıyla yanaşır , onların hərtərəfli, vətənpərvər bir nəsil olaraq yetişməsi üçün əlindən gələni edir.

# II FƏSİL. AZƏRBAYCAN DİLİ TƏDRİSİNİN QARŞISINDA DURAN MÜASİR PROBLEMLƏR

## 2.1. Milli-mənəvi dəyərlər və təhsildə modernizm.

**Bizim hamımızın bir vətəni var - bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır...... Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət - ənənələrini yaşatmalıyıq. ”** (48)

**Heydər Əliyev**

Ümumdünya təcrübəsi təsdiqləyir ki, insanların mənəviyyatı, əxlaqi və etik normaları, düşüncəsi ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Milli-mənəvi dəyərlər xalqın ən qiymətli sərvəti hesab olunur və hər bir xalqın özünəməxsus milli-mənəvi dəyərlər sistemi vardır. Bu dəyərlər təbii ki, bizim həm tariximiz, həm dilimiz, həm dinimizi, həm mədəni görüşlərimiz, həm incəsənətimiz, həm mentalitetimiz, həm də yaradıcılığımızı əhatə edir.

Milli-mənəvi dəyər məvhumu özündə çox geniş məna ifadə edir. Milli-mənəvi dəyər dedikdə, hər bir xalqın illərlə yaratdığı dəyərlər məcmusu başa düşülür. Bu da faktdır ki, bir xalqın milli-mənəvi dəyərləri olmasa, o xalq mövcud ola bilməz. Ümumiyyətlə, hər hər hansı bir toplum öz mövcudluğunu qoruyub saxlamaq istəyirsə, o ilk öncə milli-mənəvi dəyərlərini mühafizə edib gələcək nəslə ötürməlidir.

Milli-mənəvi dəyərlər fərdi cəmiyyət içərisində formalaşdıran və onun inkişafına təkan verən qaydaları nəzərdə tutur. Dünya sivilizasiyası yaranan andan bu

qaydalar da yaranmağa başlanmışdır. Bildiyimiz kimi, xalqımız çox zəngin və qədim tarixi olan irsə malikdir və xalqımız bu irsi bugünümüzə kimi qoruyur və qoruyacaqdır. Milli-mənəvi dəyərlər özündə xalqın toy və yas mərasimlərini, Novruz bayramının özünəməxsusluğunu, İslam dininin bütün ali hiss və dəyərlərini qoruyub saxlayır.

Azərbaycan xalqı öz suveren və demokratik dövlətini qurduqdan sonra həm ölkə daxilində, həm də xarici əlaqələrdə uğur qazanmışdır. Ölkəmiz istər elm sahəsi, istərsə də iqtisadi sahə olsun hər birində islahatlar aparmaqla daim irəliyə doğru addımlamışdır. Azərbaycan dövləti bu yolda irəliləyərkən  digər demokratik ölkələrin təcrübələrindən də faydalanmağa çalışır. Tarixə nəzər salsaq görərik ki, xalqımız öz milli-mənəvi dəyərləri uğrunda daima canı bahasına mübarizə aparmışdır. Bu da millətimizin öz milli dəyərlərinə nə dərəcə sadiq olmasından və bu dəyərlərə verdiyi qiymətdən irəli gəlir

Milli-mənəvi sərvətlərimiz sırasında ən qabaqcıl yeri Azərbaycan dili tutur. Azərbaycan dilinin qorunmasında həm dövlətin özü, həm də Azərbaycan dövlətinin vətəndaşları xüsusi səy göstərməlidirlər. Azərbaycan dilini millətin milli xəzinəsi hesab edən ulu öndər Heydər Əliyev deyirdi:

“Bizim çox gözəl, zəngin və cazibədar dilimiz var. Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, dövlət dilini mükəmməl bilməlidir. Gənclərə tövsiyə edirəm ki, əgər kiminsə bu barədə çatışmazlığı varsa, çalışsın bunu aradan qaldırsın. Xarici ölkələrdə təhsil alarkən, həmin ölkələrin dilini öyrənərkən öz ana dilinizi heç vaxt unutmayın və öz ana dilinizi heç vaxt başqa dilə dəyişməyin. Xalqın, millətin, insanın öz ana dilindən əziz heç bir şey ola bilməz.” (34, s. 23)

Bu gün Prezident İlham Əliyev ulu öndərin dil siyasətini davam etdirərək, Azərbaycan dilini digər dillərin təsirlərindən qorumağa və cəmiyyətdə rolunu möhkəmləndirməyə çalışır. Daim öz çıxışlarında dilimizin qorunması qeyd edən Prezident İlham Əliyev  9 oktyabr 2015-ci ildə AMEA-nın 70 illik yubileyinə həsr olunmuş yığıncaqda çıxış edərək demişdir: “Azərbaycan dili bizi bir xalq, millət kimi

qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik.” (48)

Dünyada gedən qloballaşma prosesi ilə əlaqədar olaraq xarici dövlətlərlə daima əlaqədə oluruq. Bu əlaqələr təbii ki, elm, texnologiya və s. məsələlərdə bizə uğur gətirir. Lakin bəzi hallarda gənclərimiz müasirləşmək adı ilə milli-mənəvi dəyərlərimizi unudurlar. Belə şəraitdə ziyalılarımız, müəllimlərimiz, böyüklərimiz müəyyənləşdirməlidirlər ki, hansı məsələlərdə biz, gənclər milli dəyərlərimizə əsaslanmalıyıq və ənənəçi olmalıyıq.

Müasir dövrdə milli-mənəvi dəyərlərimiz təkcə formal şəkildə özünü göstərməməlidir, bu dəyərlər həmçinin elmi-nəzəri əsaslara malik olmalıdır. Mətbuat və televiziyanın milli dəyərlərimizə yad olan elementlərdə dolu olduğu bu dövrdə mentalitetin mühafizə olunması problemi aktual məsələyə çevrilmişdir. Bu problemin həlli isə, gələcəyimiz olan uşaqlar və gənclərdə özünümüdafiə və özünüdərk qabiliyyətini formalaşdırmaqdır. Düşünürəm ki, Azərbaycanlı olan hər bir fərd dərk etməlidir ki, hansı cəmiyyətdə doğulub, bu cəmiyyətin hansı qaydaları var və mənsub olduğu dövlət hansı milli-mənəvi dəyərlərə və tarixə malikdir.

Azərbaycan tarixinin hər bir pilləsində milli ideologiyamızın əsas tərkib hissəsini azərbaycançılıq təşkil edib. Azərbaycançılıq özündə bir çox sahəni birləşdirən əsas istiqamətverici məfkurə olmalıdır. Bura həyat tərzi, mənəviyyat, dil, din, incəsənət kimi sahələr daxildir.

Azərbaycan dövləti qədim Şərq mədəniyyəti, Türk düşüncəsi və İslam ehkamlarını vəhdətindən yaranan Azərbaycan multikulturalizmini dünya xalqlarına təqdim edir. Azərbaycan xalqının ailə modeli bugünə kimi bütün dünya ölkələrində örnək tutulur. Azərbaycan ailəsi milli-mənəvi dəyərlərimizi dünyaya tanıdan ən böyük silahdır. Ailə kiçik dövlətdir. Bir dövlətdə ki, qadına hörmət qoyulur həmin dövlətin gələcəyi parlaqdır. Əsrlərlə yadelli düşmənlər bizim ailə modelimizi dağıtmağa çalışmışlar, lakin buna nail ola bilməmişlər. Ailədən danışarkən qeyd etmək istəyirəm ki, dünyada gedən qloballaşma prosesi bəzən gəncləri öz milli-mənəvi dəyərlərindən

uzaqlaşdırır. Bunun qarşısını almaq ailə başçılarının üzərinə düşür. Ailə bağlarının möhkəm qurulması, uşaqların milli dəyərlərlə və vətənpərvərlik hissi ilə böyüdülməsi ailə başçılarının ən vacib işidir. Çünki yuxarıda da qeyd etdiyim kimi, ailə kiçik dövlətdir. Əgər uşaq kiçik dövlət olan ailəyə qarşı möhkəm bağlarla bağlıdırsa, öz xalqına, millətinə və dövlətinə də bağlı qalacaqdır. Ümumiyyətlə, bir yerdə ki, ailəyə-kiçik dövlətə hörmət var, orda dövlətə də, milli dəyərlərə də hörmət olacaq və güclü hakimiyyət qurulacaqdır. Göründüyü kimi, Azərbaycanın güclü dövlətçiliyinə gedən yol ailə-məişət mədəniyyətindən başlayır.

Hər bir dövlətin tarixi inkişafının əsas qayəsini dövlətçilik ənənələri və milli-mənəvi dəyərləri təşkil edir. Bu ənənə və dəyərlərin qarşılıqlı harmoniyası nəticəsində cəmiyyətin düşüncə tərzi və dünyagörüşü formalaşır. Qeyd etdiyimiz kimi, müasir qloballaşma prosesi ölkəmizi elmi və texniki cəhətdən inkişaf etdirsə də, bu proses tarixi irsimizə, milli-mənəvi dəyərlərimizə təhlükə də yaratmış olur. Bu səbəbdən hər bir Azərbaycan vətəndaşının üzərinə onun milli-mənəvi dəyərlərini, genetik yaddaşını və tarix irsini ötürmək missiyası düşür. Müasir zamanda Azərbaycan xalqının dinamik şəkildə inkişaf edib, çiçəkləndiyi və dünyaya açıq cəmiyyət qurduğu bu dövrdə gənc nəslə milli-mənəvi dəyərlərin aşılanması aktual bir məsələyə çevrilmişdir. Ulu öndər Heydər Əliyevin də dediyi kimi, “Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır.” (47)

Təbii ki, gənclərin və uşaqların milli dəyərlər əsasında böyüməsi yolları pedaqoqları maraqlandırmışdır. Bu sahədə çoxlu əsərlər və məqalələr çap edilmişdir. Bu əsərlərdən biri də məktəb və pedaqoji fikir tarixinin görkəmli nümayəndələri, tanınmış tədqiqatçı-alimlər – Hümeyir Əhmədov və Piralı Əhmədovun birgə fəaliyyəti nəticəsində ərsəyə gələn “Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi” kitabıdır. Bu kitab nəinki pedaqoqika elminin, həm də cəmiyyətimizin inkişafında mühüm amil hesab olunur. İki fəsildən ibarət olan kitabın birinci fəsli gənclərin milli mənəvi dəyərlər əsasında tərbiyəsinin nəzəri-praktik yönlərinə, ikinci

fəsli isə gənclərin bu dəyərlər əsasında tərbiyəsinin yollarına və üsullarına həsr edilmişdir.

Vətənpərvər ruhda və gərgin tətqiqatlar nəticəsində yazılmış bu kitabda təlim və tərbiyənin nəzəri və praktiki yönlərini vurğulamaqla yanaşı, uşaqların vətəndaş, əsas da şəxsiyyət kimi formalaşmasında Azərbaycan xalqının mentaliteti, milli-mənəvi dəyərləri və zəngin adət-ənənələri əsas rol oynamasını ön plana çəkir. Bu kitabın əsas ideya məzmununu gənc nəslin mənəvi-əxlaqi dəyərlər əsasında, milli və bəşəri ideallarla düzgün təlim-tərbiyə olunması, cəmiyyətdə bir şəxsiyyət kimi formalaşması baxımından pedaqoji prosesin düzgün təşkili təşkil edir. Kitabı daha oxunaqlı edən pedaqoji mülahizələrin həyati faktlara əsaslanmasıdır. Kitabda Azərbaycanın ailə modeli və zəngin milli-mənəvi dəyərlər əks olunur.

Azərbaycan dövləti mədəniyyət və milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində bir sıra işlər görür. Belə ki, 1995-ci il qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində özəlliklə vurğulanmışdır. “Azərbaycan dilində latın qrafikalı kütləvi nəşrlərin həyata keçirilməsi haqqında ” və “Azərbaycan Milli Ensiklopediyası haqqında” verilən sərəncamların imzalanması nəticəsində Azərbaycanın milli dəyərlərinin qorunmasında uğurlu addımlar atılmışdır. Bundan başqa Azərbaycanın dəyərli yazıçı və şairlərinin irsinin Azərbaycan əlifbasıyla yenidən yazılmasına start verilmişdir. Bu baxımdan Azərbaycan qloballaşma prosesindən faydalana bilmişdir. (26, s. 49)

Ümumiyyətlə, təhsil sistemində yeniliklər aparılarkən xalqımızın milli, əxlaqi, mədəni, tarixi dəyərləri nəzərə alınır. Müasir təhsil prosesində informasiya texnologiyaları çox uğurla istifadə olunur və bunlara uyğun yeni interaktiv təlim metodları da işlənib hazırlanır. Təbii ki, bunlara baxmayaraq Azərbaycanın qloballaşma prosesindən nə dərəcədə yaxşı şəkildə yararlanmasını demək hələ ki, çox erkəndir. Çünki müasir dövrdə qloballaşmanın ölkələr üçün yaratdığı problemlər ölkəmizi də narahat edir. Qloballaşmanın bir sıra məqsədləri vardır ki, bunlar nəticə olaraq mədəni inkişafa dağıdıcı zərbə vurur. Lakin bütün bunlara baxmayaraq, demək

olar ki, hazırki dövrdə Azərbaycan dövləti qloballaşmanın müsbət cəhətlərindən maksimum yararlanmağa cəhd göstərir.

Görkəmli siyasət və mədəniyyət xadimi, xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində milli-mənəvi dəyərlərimizə diqqət göstərmiş və bu haqda qanunlar imzalamış, bəyanatlarla çıxış etmişdir. O, 13 avqust 2001-ci il tarixli bəyanatında demişdir: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adətən-ənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir." (30, s. 45)

Ümummilli lider Heydər Əliyev Azərbaycan gənclərinin milli-mənəvi dəyərlərə yiyələnməsi və bir vətənpərvər vətəndaş kimi yetişməsi məsələsini vacib hesab edirdi. Ulu öndər bu məsələylə bağlı bəhs edərkən qeyd edirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz." (20, s. 275)

Azərbaycan təhsil sahəsində daim yeniliklər edir. Bu yeniliklər təbii ki, şagirdlərin hərtərəfli inkişafına gətirib çıxarır. Belə ki, ənənəvi təhsil sistemində şagirdlər passiv iştirakçılar olmaqla biliyə, əsasən, nəzəri olaraq yiyələnirdilər. Lakin müasir təhsildə belə deyil. Şagirdlər öyrəndikləri nəzəri bilikləri praktikada tətbiq edərək həmin biliklərə daha yaxşı yiyələnirlər. Bu üsul öyrənənlərə aldıqları biliklərin daha əhəmiyyətli və lazımlı olmasını göstərir. Bunların şagirdlərə göstərilməsində müəllim əhəmiyyətli rol oynayır. Müəllim həm istiqamətverici, həm öyrədici və əlaqələndirici, həm də stimullaşdırıcı şəkildə fəaliyyət göstərir.

Hazırki dövrdə bütün dünyada təhsilin humanistləşdirilməsi ideyası aktualdır. Humanistləşdirmə təhsilin bütün pillələrdə, müəllim və şagird münasibətlərində, tərbiyəvi söhbətlərdə özünü göstərir. Təhsilimizdə humanistləşdirmənin başlıca

məqsədi xalqın humanist şəkildə həyat sürməsi və formalaşmasıdır. Təhsilin humanistləşdirilməsi, əsasən, üç istiqamətdə olur:

I. Təlim və təhsilin idarə olunmasına nəzarət və rəhbərlik etmək;

II. Təlim və təhsil prosesinin təşkili zamanı bütün fənlərin fayda və imkanlarından istifadə edilməsi;

III. Tərbiyə prosesində humanistləşdirmənin hər üç istiqamətidən vəhdət şəklində istifadə olunması

Təhsil hər bir dövlətdə olduğu kimi, Azərbaycanda da əhəmiyyətli sahə olmaqla onun istər siyasi-iqtisadi, istər mədəni, istərsə də sosial inkişafını müəyyənləşdirir. Təhsil və təlim-tərbiyə ölkənin milli-mənəvi dəyərlərini formalaşdırır. Elə təkcə bu səbəbə görə belə hər bir dövlət təhsilin inkişafına diqqət yetirməlidir.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra təhsil sahəsində dünya təcrübəsindən yararlanmış, başqa sözlə inteqrasiya etmişdir. Çox qısa bir müddətdə ölkəmiz yüksək nailiyyətlər əldə edərək dünya ölkələrinin marağına səbəb olmuşdur. Bu nailiyyətlər sırasında əlbəttə ki, ölkənin ümumtəhsil sistemində də özünü göstərir. Prezidentimizin bu sahədə imzaladığı sərəncamlar, verdiyi qanunlar, görülən tədbirlər müasir təhsildə uğurla nəticələnmişdir.

Qloballaşma prosesi gedən dünyada təbii ki, təhsildə nailiyyətlər əldə etməmək mümkün deyil. Dünyanın istənilən ölkəsində olduğu kimi, Azərbaycanda da insan kapitalının yaranıb formalaşmasında təhsilin rolu danılmazdır. Azərbaycan Respublikasının 2005-ci ildən Baloniya sisteminə qoşulması da təhsil sitemində işlərin görüldüyünü göstərir.(50)

Təhsildə müasirlikdən danışarkən ilk olaraq belə sual yaranır ki, bəs müasir təhsil nedir və nəyə xidmət edir? - Müasir təhsil bugünümüzdə cəmiyyətin formalaşmasında rolu olan ayrılmaz bir faktordur. “Təhsildə müasirlik” deyəndə bizim dövrümüzə uyğun olan, cəmiyyətin ehtiyaclarına cavab verən və müasir tələblərlə sintez yaradan cəhətlər nəzərdə tutulur. Bu cəhətlər həm bizim

ənənələrimizə uyğun olmalı, həm də müasir standartlara cavab verməlidir. İndiki təhsilimizin inkişafı coxşaxəlidir. Bu şaxələrin hər birinin əsasında elə yeniliklər dayanır ki, onlar insanların meylləri və fikirləri, arzu və istəkləri üzərində qurulur.

Bilirik ki, təhsil bütün sahələrin inkişafına səbəb olur, çünki təhsil hər bir şəxsə təsir edir və cəmiyyətin inkişafının hər bir mərhələsində bunun müsbət nəticəsini görmək mümkündür. Yuxarıda dediklərimizi əsas tutaraq söyləyə bilərik ki, təhsil :

- ✓ Xalqın inkişafının hərəkətverici qüvvəsidir;
- ✓ İntelektual düşünmə fəaliyyətini formalaşdırır;
- ✓ Xalqın yaşayış səviyyəsini, yəni maddi cəhətdən həyat şəraitini yaxşılaşdırır;
- ✓ Vətəndaşları cəmiyyətdə təfəkkürlü qüvvəyə çevirir;
- ✓ Hüquqi cəmiyyət formalaşdırır;
- ✓ Milli-mənəvi dəyərlər mühafizə edir və gələcək nəslə ötürür və s. (51)

Bu saydıqlarımızdan belə nəticə çıxır ki, təhsil dövlətin əsas və aparıcı sahəsidir və təhsilin inkişafı dövlətin qarşısında duran ən vacib məsələdir.

Müasir təhsilin bu nailiyyətlərindən danışarkən, təhsilin səviyyəsinin qaldırılması yollarından da bəhs etməliyik. Müasir dövrdə təhsil ocaqları standartlara uyğun olmalıdır. Belə ki, ən müasir texniki avadanlıqlarla təchiz edilmiş təhsil ocaqlarının yaradılmalı, təhsilin strukturu yenilənməli və həm elmi, həm də pedaqoji cəhətdən yüksək dərəcəli kadrlar fəaliyyət göstərməlidir. Prezident İlham Əliyev bir çıxışında deyirdi: "Təhsil prosesi lazımi səviyyədə təşkil edilməmişdirsə, tədrisin səviyyəsi axsayırsa, tələbələr bilik qazanmağa nə qədər can atsalar da, nəticə əldə etmək çətin olacaqdır." (51)

Bütün bu mərhələlər yerinə yetirildikdən sonra artıq təhsilin keyfiyyətində yüksəlmə görünəcəkdir. Ona görə ki, təhsil elə bir sahədir ki, ona verilən əmək bir müddət sonra öz müsbət nəticəsini göstərir. Buna görə də, təhsilimizin dünya səviyyəsində inkişaf etməsi üçün zaman lazımdır.

Müstəqilliyin ilk illərində demək olar ki, təhsil sahəsində böhranlar baş verirdi. Dövlət daxilində gedən çəkişmələr təhsilə də öz mənfi təsirini göstərirdi. Belə ki, yuxarı vəzifələrdə oturan şəxslərin savadsız olması xalqın gələcəyə inamını azaldır, şagirdlərin təhsil almaq istəyi getdikcə azalırdı. Bir növ onlar həvəsdən düşürdülər. Lakin ulu öndər Heydər Əliyev hakmiyyətə gəldikdən sonra təhsildə inkişaf başladı. O, deyirdi : "Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır." (51)

Bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də nə qədər inkişaf etməsinə baxmayaraq problemlər olub və həmişə də olacaqdır. Lakin bu problemlərin hər dəfə diqqət mərkəzinə gətirilməsi onların təsir gücünün azaldılmasına və ya aradan qaldırılmasına müsbət təsir göstərə bilər. Təhsil problemlərinə aşağıdakılar daxildir:

- Təhsil işçilərinin ödənişləri;
- Təhsil ocaqlarında müəllim və şagird münasibətlərinin formal xarakterli olması;
- Repetitorların qanunsuz olaraq şagirdləri təhsil ocaqlarından yayındırmaları;
- Məktəb olduğu halda kursların açılması və onların valideynlərin büdcəsinə vurduğu ziyanlar və s.

Yuxarıda qeyd olunan məsələlər hazırda təhsilin inkişafını ləngidir. Bu nöqsanları aradan qaldırmaq üçün bir sıra tədbirlər görülür.

Dövlətimizin gələcəyi olan uşaqlara təhsil verərkən milli-mənəvi dəyərləri göz ardı etmək olmaz. Uşaqlar vətənpərvər ruhlu, öz milli adət-ənənələrinə bağlı olan, gələcəkdə sahibləndiyi peşəsini sevəcək və xalqına layiqli şəkildə xidmət edəcək potensialda yetişdirilməlidirlər

Hamımıza məlumdur ki, Azərbaycan 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulum)" sənədi müzakirə etdikdən sonra 2007-ci ildə bu sənəd təsdiq edildi. Kurikulum dünya təcrübəsinə əsaslanan müasir metod və yanaşmaları özündə ehtiva edirdi. Bu konsepsiya

vasitəsilə inkişaf etmiş ölkələrin ideya və təcrübələrindən faydalanaraq, onları öz təhsilimizdə istifadə etməyə başladıq.

Milli Kurikuluma keçid məktəblərdə böyük dəyişikliklərə səbəb oldu. Müşahidələrə əsasən aşağıdakı bəndləri qeyd edə bilərəm:

- Dərs formaları dəyişdi. Yəni əvvəl təhsildə ənənəvi təlim metodundan istifadə edilirdisə, indi artıq fəal dərs mövcuddur;
- Müəllim-şagird münasibətlərində də əsaslı dəyişiklilər baş verdi. Yəni əvvəllər müəllim dərsdə aparıcı mövqedə çıxış edirdisə, indi məsləhətçi rolunda çıxış edirdi;
- Şagirdlər ənənəvi dərsdə daha passiv iştifak edirdilər, amma fəal dərsdə dinamik aura mövcuddur və şagirdlər daha fəal çıxışlar edirlər;
- Müasir təhsil sistemində şagirdlərin yaradıcı tərəfi kəşf edilir. Bu əsasən dərs zamanı özünü göstərir, müəllim tapşırıqlar verərək şagirdlərin yaradıcı yönünü göstərirdi.
- Müasir dərs şagirdləri özlərinə daha inamlı edirdi. Onlarda danışıq qabiliyyətini formalaşdırır;
- İndiki təhsilin ən gözəl cəhətlərindən biri də odur ki, şagirdlər kollektivlə, qruplarla, cütlərlə işləməyi öyrənirlər. Bir-birilərinin fikirlərini dinləməyi, həmin fikirlər hörmət etməyi öyrənirlər;
- Ənənəvi dərsdə şagirdlər dərs zamanı sıxıla bilərdilər,lakin fəal dərsdə bu hal baş verə bilməz, çünki müəllim müxtəlif oyun və interaktiv metodlarla şagirdin diqqətinin dərsdən yayınmasına imkan vermir, əksinə daha da dərsə cəlb edir;
- Dərsdə İKT-dən istifadə də müasir təhsilin uğurlu cəhətlərindəndir. Əvvəllər, yəni ənənəvi dərslərdə bu texniki vasitələr yox idi. Ancaq indi istər elektron lövhə, istər elektron dərs vəsaitləri şagirdlərin xidmətindədir;
- Müasir dərsdə qiymətlədirmə də obyektiv aparılır.

Yuxarıda sadalanan cəhətlərlə yanaşı təbii ki, tədris prosesində mənfi cəhətlər də olur. Bu normal haldır. Çünki, heç bir şey yüzdə yüz olmur. Lakin bu mənfi

cəhətləri aradan qaldırmamaq artıq yaxçı hal deyildir. Müasir təhsil sistemində menfi gördüyüm cəhətlərdən bir neçəsini qeyd etmək istəyirəm:

- Sinifdə şagirdlərin sayının çox olması. Bu zaman həm müəllim, həm də şagirdlər üçün problem olur. Müəllim üçün çətinlik odur ki, hər şagirdə istənilən diqqəti göstərə bilmir. Şagird isə istədiyi hər sualı müəllimdən soruşa bilmir. Fikrimcə, sinifdə şagirdlərin sayı 15-dən yuxarı olmamalıdır. Əks təqdirdə şagird dərsdən geri qalır və nəticədə valideynləri repetitor tutmaq məcburiyyətində qoyur;
- Biz qeyd edirik ki, müəllim dərsdə fasilitator, yəni məsləhətçi rolunda çıxış edir. Bu əslində yaxşı yöntəmdir. Lakin bəzən şagirdlər bunu yanlış anlayırlar və dərslərdə müəllimin sözündən çıxırlar. Əslində müasir təhsil sistemi müəllim və şagirdin birgə fəaliyyətinə əsaslanan sistemdir və yaxşı olardı ki, müəllim şagirdlərə bunu düzgün şəkildə izah edə bilsin;
- Bir də qeyd etmək istəyirəm ki, dərsdə müəllim qruplarla və ya kollektivlə iş apararkən, şagirdlərin hər birinə diqqət etməlidir. Çünki, bəzən daha fəal şagirdlərlə işləmək passiv şagirdlərə çətin gəlir. Və sanki onların arasında qaynayıb qarışaraq özünü ifadə edə bilmir.

Təbii ki, bütün bu problemlərin aradan qaldırılmasında müəllim böyük rol oynayır. Müəllimlər təkcə savadlı olmaqla bu işin öhdəsindən gələ bilməzlər. Onlar həmçinin pedaqoq və psixoloq da olmalıdırlar ki, şagirdlərin problemlərini yoluna qoya bilsinlər. Elə müəllimlər var ki, onlar o qədər də savadlı deyil, lakin pedaqoji cəhətdən öyrətmə yöntəmini düzgün seçirlər. Lakin elə müəllimlər də vardır ki, onlar çox savadlıdırlar, amma yaxşı pedaqoq deyillər. Bu hallar da vardır, lakin həm pedaqoji, həm də elmi cəhətdən yüksək səviyyədə olan müəllim təhsilimizə daha böyük nailiyyətlər qazandıracaqdır. Buna görə də, müəllim peşəsini seçən şəxslər bir daha düşünməlidirlər ki, onlar sadəcə diplom istəyirlər , ya gələcəkdə uğur qazanacaq müəllim olmaq. Məncə bunu düşünən hər bir şəxs həm öz gələcəyi , həm də xalqın gələcəyi üçün düzgün qərar vermiş olacaqdır.

Gördüyünüz kimi, Azərbaycan Respublikası istər milli-mənəvi dəyərlərin qorunmasında, istərsə də təhsilin inkişafında əlində gələni edir. Ulu öndər Heydər Əliyevin təhsil sahəsində və milli dəyərlərin qorunması sahəsində qoyduğu bu gözəl ənənəni Prezident İlham Əliyev və xanımı, vitse-prezident Mehriban Əliyeva uğurla davam etdirir. Bu uğurlu siyasətin nəticəsidir ki, hər il:

- ✓ Minlərlə uşaq məktəbə qədəm qoyur;
- ✓ Minlərlə şagird məktəbi bitirir və ali təhsil ocaqlarına qəbul olur;
- ✓ Çoxlu sayda, yüksək səviyyəli məktəblər açılır;
- ✓ Həmin məktəblər texniki ləvazimatlarla təchiz olunur;
- ✓ Təhsil ocaqları savadlı və professional müəllim kollektivi və pedaqoqlarla təsis edilir.

## 2.2. Azərbaycan dili tədrisində istifadə olunan fəal-interaktiv təlim metodları.

Dünyada baş verən qloballaşma prosesi və Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiya etməsi təhsilimizdə əsaslı dəyişikliklərin edilməsini zərurətə çevirdi. Ənənəvi təlimdən fərqli olaraq bu prosesdə yeni təlim texnologiyası olan fəal/interaktiv təlimdən istifadəyə yer verilirdi. Fəal təlim tələbələrdə dərketmə prosesinin fəallığına, müstəqil düşünmə qabiliyyətinin formalaşmasına əsaslı təməl yaradır. Fəal/interaktiv təlimin müxtəlif üsulları vardır. Üsulların hər birinin özünəməxsus texnikası vardır. Bu üsullardan istifadə etmək dərsin səmərəliliyini artırmaq üçün çox vacibdir.

Tədris metodları (yunan-μέθοδος - yol) - müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə müddəti nəticəsində təlim məzmununda verilən bilik, bacarıq və bacarıqların ötürülməsi və assimilyasiyasıdır. Qəbuletmə prosesi isə müəllim və tələbə arasında xüsusi bilik, bacarıq, bacarıqların ötürülməsi və assimilyasiyasına yönəldilmiş qısa müddətli qarşılıqlı əlaqədir.

Milli pedaqogiyada qurulan ənənəyə görə, təlim metodları üç qrupa ayrılır:

1. Təhsil və bilik fəaliyyətinin təşkili və həyata keçirilməsi metodları:

- Sözlü, vizual, praktiki (təlim materialına əsasən);
- Reproduktiv, izahlı-illüstrativ, axtarış, tədqiqat, problem və s. (Təhsil və bilik fəaliyyətinin təbiətinə əsasən);
- İnduktiv və deduktiv (təhsil materialının təqdimatına əsasən);

2. Təhsil və bilik fəaliyyətinin effektivliyini izləmək üçün metodlar: bilik, bacarıq və bacarıqların mənimsənilməsinin effektivliyini artıran şifahi, yazılı testlər ;
3. Öyrənmə fəaliyyətin stimullaşdırılması metodları: motivasiyanın formalaşmasında, məsuliyyət hissi, öhdəlik, bilik, bacarıq və bacarıqların mənimsənilməsi maraqlarında müəyyən stimullar.

İnteraktiv tədris üsulları nədir? İnteraktiv metodlar "müəllim = tələbə" və "tələbə = tələbə" qarşılıqlı sxemlərə əsaslanır. Yəni, təkcə müəllim uşaqları öyrənmə prosesinə cəlb etmir, həm də tələbələrin bir-biri ilə qarşılıqlı əlaqəsi həmin tələbələrin motivasiyasına da təsir göstərir. Müəllim yalnız köməkçi rolunda çıxış edir.Onun əsas vəzifəsi uşaqların təşəbbüsü üçün şərait yaratmaq və onlar üçün dərs zamanı ən uyğun və münasib hesab edilən metodu seçməkdir.

Ümumilikdə interaktiv təlim metodlarının 400-dən çox növü var və hər metod özünəməxsus şəkildə tətbiq edilir. Müəllimin üzərinə düşən iş isə bu təlim metodlarını yerində və düzgün şəkildə tətbiq etməkdir. Əgər müəllim bu işi layiqincə yerinə yetirə bilirsə dərs də, təlim prosesi də effektiv olur. Azərbaycan dili dərslərində bu metodlardan bir neçəsinin necə istifadə edilməsini nəzərdən keçirək:

**1. Diskussiya (Müzakirə).** Müzakirə latınca imtahan, tədqiqat mənaların ifadə edir və hər hansı mübahisəli məsələ və ya problemlə bağlı məlumatların, fikirlərin, düşüncələrin müzakirəsi və ya mübadiləsi kimi başa düşülür. Diskussiya həm öyrədən , həm də öyrənən üçün önəmli metoddur. Bu metod onların mətndəki hadisə

və faktlara münasibəti öyrənməyə imkan verir. Müzakirənin əsas xüsusiyyəti fərqli fikir mənbələrinin tamamlayıcı dialoq və mübahisə-müzakirə vasitəsiylə birləşməsidir. Diskussiya prosesi zamanı öyrənənlər məsələyə fikir bildirməyi, onları faktlar əsasında təhlildən keçirməyi öyrənirlər.Bu üsuldan istifadə öyrənənlərdə dinləmək və növbə ilə danışmaq mədəniyyətini, digər fikirlərə hörmət göstərmək və diskussiya mədəniyyətini inkişat etdirib formalaşdırır

Tədrisdə ümumi tədris-seminar formasıda vardır. Ümumi tədris-seminar forması ilə müqayisədə müzakirə bir sıra üstünlüklərə malikdir :

1. Müzakirə edən tərəf dərin, şəxsi biliyə malik olmalıdır. Bildiyimiz kimi müəllim şagirdlərə dərsi məruzə edərək biliklərini köçürür. Təbii ki, bu qənaətli bir üsul olsa da, müzakirə metodu daha uzun müddətli bir təsirə malikdir. Aktiv, maraqlı, emosional müzakirələr yeni biliklərin mənalı və davamlı asimiliyasına gətirib çıxarır, şagirdləri düşünməyə, dəyişməyə və ya onların münasibətlərini yenidən düzəltməyə gətirib çıxarır;
2. Müzakirə müddətində şagird və tələbələrin qarşılıqlı təsirləri həyata keçirilir;
3. Şagirdlərlə qarşılıqlı əlaqə müzakirənin ən gözəl tərəfidir. Beləliklə müzakirələr qrupun müzakirə olunan məsələləri necə yaxşı dərk etdiyini və daha formal qiymətləndirmə metodlarından istifadə edilməsini tələb etmir.

Azərbaycan dili dərslərində qrammatik biliklər öyrənilən zaman müzakirə metodundan istifadə effektlidir. Məsələn, ismin quruluşca növlərin tədris edərkən müəllim şagirdlərə "söz yaradıcılığı" haqqında suallar verərək onları müzakirəyə cəlb edir. Müzakirənin sonunda şagirdlərin müxtəlif və fərqli yanaşmaları ortaya çıxacaqdır. Digər bir nümunə olaraq alınma sözlərin tədrisini göstərmək olar. Belə ki, alınma sözlərin hansı dildən gəldəyini , niyə məhz həmin dilə məxsus olmasını , milli mənşəli sözlərlə onları necə fərqləndirməli olduqlarını və bu kimi problemləri şagirdlərlə diskussiya yolu ilə aydınlaşdırmaq olar. Diskussiya ona görə faydalı hesab olunur ki, bu metodla şagirdlər muzakirə yolu ilə dərsi daha mükəmməl şəkildə mənimsəmiş olurlar.

**2. Beyin həmləsi.** "Beyin fırtınası" və ya "beyin həmləsi" adlarından istifadə olunur. Beyin həmləsi bir şagirdin müəyyən bir sualı cavablandırıldığı bir üsuldur. Bu üsülda görülən bir nöqtəyə fikir bildirmək deyil, mövzunu hərtərəfli araşdırmaq ön plandadır və hər kəsin kağız parçasında qeyd etməsi vacibdir. Şagirdlər cavabları əsaslandırmaq və ya izah etmək tələb olunmadığını bilməlidirlər. Beyin həmləsi çox effektiv bir metoddur. Mübahisəli məsələlərin müzakirə olunması, dar zaman çərçivəsində çoxlu sayda fikir toplamaq, sinifdə daha az fəal olan şagirdlərin müzakirədə iştirakına həvəsləndirmək, sinifin bilik və ya hazırlıq səviyyəsini aydınlaşdırmaq baxımından beyin həmləsi metodu qabaqcıl metodlardan biri hesab olunur

Beyin həmləsi bir problemi həll etmək üçün müxtəlif və biri digərindən fərqli fikirlər yaradan sadə bir metoddur. Bir beyin fırtınası zamanı şagirdlər sərbəst şəkildə yaradılan fikirləri paylaşırlar ki, hər bir şagirdin fikri digər şagirdin fikrini inkişaf etdirə bilər. Bu da fəal dərsdə şagird=şagird əlaqəsinin bariz nümunəsidir.

Məqsədləri:

- Mövzu ilə bağlı şagirdlərin bilik səviyyəsinin formalaşdırılması;
- Ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi

Metodun tətbiqi:

1. Şagirdlərə müəyyən olunmuş mövzu ilə bağlı və ya müzakirə üçün sual verin;
2. Bu məsələyə dair şəxsidüşüncələrinizi bildirin;
3. Şagirdlər tərəfindən deyilmiş bütün fikirləri etiraz etmədən lövhəyə yazın;
4. Hər şeyi bitirdikdən sonra şagirdlərə əldə etdikləri nəticələrdən və onların bu mövzu ilə əlaqəli hansı nəticələr verə biləcəyindən bəhs etmələri xahiş olunsun. (44)

Beyin həmləsi metodu çox vaxt aparmamalı və ortalama 4-5 dəqiqə ərzində bitməlidir. Sonra isə bütün variantları müzakirə edilməlidir.

Beyin həmləsindən söz yaradıcılığı bəhsində istifadə etmək olar. Müəllim problem olaraq fellərdən isim düzəldən şəkilçilər mövzusun ortaya qoyur. Şagirdərin

hər biri "yataq,büküm, döngə, qızartı ,əkin " və s. kimi cavablar verərək beyinlərinin məhsulun ortaya cıxarırlar. Bütün cavabları müəllimə lövhəyə yazır və sonda düzgün və yanlış cavabları qiymətlndirir.

**3. Oyun.** Təhsil sistemində tədris prosesini aktivləşdirmək vasitələrindən biri olan oyun metodu şagirdlərin fəaliyyətinin, başqa sözlə desək birgə fəaliyyətin formasıdır. Oyun metod kimi imkan verirki, təlim üçün motivasiya yaradılsın və bu səbəbdən təlimin ilkin mərhələsində təsir gücü böyük olur. Bu metod praktiki bacarıqların inkişaf metodu kimi nəzəri materialdan sonra dərhal effektiv ola bilər. Oyunların üç əsas kateqoriyası var:

- ❖ Biznes oyunları;
- ❖ Təşkilati oyunlar;
- ❖ Rollu oyunlar. (46, s. 8 )

Azərbaycan dili dərsində daha çox istifadə edildiyi üçün rollu oyun metodundan daha geniş bəhs edək.

**Rollu oyun.** Bu üsul şagirdlərin yaradıcı təxəyyülünün inkişafına səbəb olur, onların danışıq və ünsiyyətqurma vərdişlərini inkişaf etdirir. Şagirdlərin üzərinə düşən iş keçirilən dərsi kiçik səhnəcik şəklində qurmaqdır. Səhnəciyi qurarkən onlar daha çox öz fikirlərindən istifadə etməyə çalışmalıdırlar.

Bu metoddan nümunə olaraq morfologiya bölməsinin sonunda istifadə ede bilərəm. Hər bir şagirdə bir nitq hissəsi rolunu verərək onların bir-biri ilə əlaqəsini rollu oyun vasitəsilə səhnələşdirmək mümkündür. Hər bir şagird bir nitq hissəsi rolunda çıxış edərək əvvəlcə öz xüsusiyyətlərini, daha sonra isə hər bir nitq hissəsiylə olan bağlılığını göstəcəkdir. Bu oyun sahəsində əslində hər bir nitq hissəsinin ayrıca rolundan başqa onların, yəni nitq hissələrinin birgə fəaliyyətini də dərk etmiş olacaqlar. Yuxarıda da qeyd etdiyim kimi, ümumiyyətlə, bu metod öyrənənlərin motivasiyasının yüksəlməsinə gətirib çıxarır, dərsin gedişatını daha əyləncəli edir və şagirdlərin öyrənmə istəyini artırır.

**4. Söz asosiasiyası.** Bu metodu həm mövzunun öyrənilməsinin əvvəlində, həm də axırında tətbiq etmək olar. Metod aşağıdakı kimi tətbiq olunur:

- Mövzu ilə bağlı əsas söz lövhəyə yazılır;
- Öyrənənlərə tapşırıq verilir ki, bu sözlə bağlı gördükləri və eşitdikləri anda ağıla gələn ilk sözü yazsınlar. Buna görə hamıya 1-2 dəqiqə zaman verilir;

Dərsin sonunda şagirdlərə tapşırılır ki, həmin mövzu ilə bağlı düşüncələrini bir kəlimə ilə ifadə etsinlər.

Söz asosiasiyası metodundan morfologiya bölməsində sifəti kecerken tətbiq etmək mümkündür. Belə ki, hər hansı bir isim verilir və onun xüsusiyyətlərini sadalamaq tələb olunur. Həmin xüsusiyyətləri sadalayarkən sifətin növləri ortaya çıxmış olur. Nümunə :




**5. Problemli vəziyyət.** Bu metod tənqidi təfəkkürü formalaşdırır, təhliletmə və ümumiləşdirmə bacarığını inkişaf etdirir. Müəllim öncədən problemi hazırlayır, müzakirə məqsədilə suallar tətbiq edir.

Şagirdlər kiçik qruplara bölünür. Hər bir qrup onlara verilən vərəqdəki problemli vəziyyəti müzakirə edir, həll yolları təklif edir. Qruplar işlərini bitirdikdən sonra auditoriyada ümumi müzakirə aparılır.

Problemli vəziyyət üsulunu məsdər və ya ismin, sifət və feli sifətin, feli bağlama və zərfin müqayisəsi zamanı vermək olar. Problemli vəziyyəti həmin nitq hissələrinin forması, cümlədə yeri və s. kimi suallarla yaratmaq olar.

**6. Qərarlar ağacı.** Bu metodun tətbiqi o zaman baş tutur ki, verilən materialda təqdim edilən problemin birden çox həlli yolu var və bunlardan hansı liderlik təşkil etməlidir. Şagird bu həllərin hamısını seçə bilmir. Bu metod aşağıdakı formada tətbiq olunur :

- İlk öncə müəllim təhlil olunacaq məsələləri və onların həlli yollarının bir neçəsini müəyyənləşdirir. Ancaq təklif olunan variantlar eyni dərəcədə real olmalıdır ki, onların içində “ Lider ” variant olmasın;
- Təhlil ediləcək problem iri həcmli kağız parçasında bu formada olmalıdır :

<table>
<tr><td colspan="5">PROBLEM</td></tr>
<tr><td rowspan="2">Problemin həlli yollarinin “ +” və “-” tərəfləri</td><td colspan="4">Problemin həlli yolu</td></tr>
<tr><td>Birinci yol</td><td>İkinci yol</td><td>Üçüncü yol</td><td>Dördüncü yol</td></tr>
<tr><td></td><td>+</td><td>-</td><td>+</td><td>-</td></tr>
<tr><td>Qərar :</td><td></td><td></td><td></td><td></td></tr>
</table>

- Müəllim şagirdləri qruplara bölür ;
- Tapşırıq izah olunur və hər qrupa bu cədvəl olan vərəq və qələmlər verilir. Daha sonra vaxt təyin olunur;
- Qruplar problemin həlli yollarını müzakirə edir, müsbət və mənfi cəhətləri qeyd edirlər. Variantlar hamısı təhlil edildikdən sonra qərar qəbul edilir və bir variant seçilir.

Qərarlar ağacı metodundan bir çox mövzularda tətbiq etmək olar. Leksika bölməsində omonim və ya çoxmənalı sözlərin tətqiqində istifadə etmək olar, həmçinin sz yaradıcılığında da istifadə etmək mümkündür.

**7. BİBÖ (Bilirəm, İstəyirəm bilim, Öyrəndim) .** Metod aşağıdakı formada aparılır:

a. Problem elan edilir;
b. Müəllim yazı taxtasında 3 sütunlu cədvəl qurur və Bilirəm, İstəyirəm bilim, Öyrəndim başlıqlarını qeyd edir;
c. Şagirdlər mətndəki problemlə əlaqədar bildiklərini birinci sütunda, həmin problemlə bağlı bilmədiklərini ikinci sütunda, dərsin sonunda isə cədvələ diqqət yetirilir və öyrəndikləri üçüncü sütunda qeyd edilir.

Bu metodla öyrənənlərin bildikləri təkrar olunur, bilmək istədikləri araşdirilir və bu tədqiqat nəticəsində gəlinən nəticə onların biliyinə çevrilir.

BİBÖ metodundan nümunə olaraq cümlə üzvlərinin ifadə vasitələrin tədris edərkən istifadə etmək olar. Bu zaman ilk sütunda misal üçün mübtədanın ifadə vasitələrindən şagirdlərin bildikləri yazılır, ikinci sütunda onların bu ifadə vasitələri bəhsindən öyrənmək istədikləri , üçüncü sütunda isə nəticə yazılır.

**8. Venn diaqramı.** Bu metoddan dərs zamanı mövzular üzrə müqayisə aparmaq , onların oxşar və fərqli cəhətlərini müəyyənləşdirmək üçün istifadə edilir. Venn diaqramından istifadə aşağıdakı formada olur:

1. Müqayisə olunacaq bölmələr müəyyənləşdirilir;
2. .Kəsişən iki və ya daha artıq dairə çekilir (ortada yazmaq üçün boş yer saxlanır);
3. Birinci və üçüncü dairədə müqayisə olunacaq obyektlər yazılır. Şagirdlərə təlimat verilir ki, nə müqayisə olunur və dairələrdə oxşar və fərqli cəhətlər hansı formada qeyd olunmalıdır;
4. Müqayisə edilən obyektlər təsvir olunur ,fərqli xüsusiyyətlər sağ və sol tərəfdə, oxşar xüsusiyyətlər isə kəsişən hissədə qeyd edilir;

5. Sonda isə müqayisə və oxşarlıqlar esasında mövzu ümumilləşdirilir. (44)

Venn diaqramı metodundan bir çox bölmələrdə tətbiq etmək olar. Məsələn: sifətlə zərfin, feli sifətlə sifətin, zərflə feli bağlamanın və s. müqayisəsində istifadə etmək olar. Venn diaqramına bir nümunə verək :




**9. Karusel.** Karusel metodu tətbiq edən müəllim əvvəlcədən iri vərəqlərdə dərs materialına uyğun suallar hazırlayır. Dərs başladıqdan sonra müəllim hər bir qrupa fərqli suallar olan kağızlar paylayır. Qrupun üzvləri hər suala bir cavab yazıb saat əqrəbi istiqamətində vərəqləri ötürürlər. Qrupların hər biri fərqli rənglə cavabları qeyd edirlər ki, bir-birindən seçilsin. Sonda müəllim vərəqləri yazı lövhəsinə yapışdırır və bütün qruplar cavabları müzakirə edirlər. (44)

Müəllimə leksik yolla söz yaradıcılığı dərsin kecerkən hər bir qrupa "dialekt və şivələr hesabına söz artımı ", "alınma sözlər hesabına söz artımı ", "yeni məna kəsb

etmək hesabına söz artımı " başlıqlı kağızlar paylanır. Qruplar kağızlarda öz fikirlərini qeyd edirlər. Sonda kağızlar lövhəyə yapışdırılır və nəticə ümumiləşdirilir.

**10. Akvarium.** Bu üsul diskussiya aparmaq vərdişlərini inkişaf etdirir. Burada əsas məsələ vahid fikrə gəlmək deyil, diskussiyanı düzgün şəkildə aparmaqdır. Bu metod zamanı şagirdlər iki qrupa ayrılır və bir-birinin daxilində olan 2 dairə yaradırlar. Birinci dairədə, yəni daxili dairədə dərs zamanı mətndə qoyulan problem müzakirə obyekti verilir, ikinci dairə olan xarici dairədə isə onların diskussiyani doğru aparmağı müşahidə edilir. Daha sonra isə qruplar yerlərini dəyişirlər. Problemin həlli işi davam etdirilir.

Ümumiyyətlə, bu metod şagirdlərdə dinləmə qabiliyyətini, şagirdlərin bir-birinin sözünü kəsməmək və diskussiyanı düzgün aparmaq mədəniyyətini inkişaf etdirir.(44)

**11. Video filmlərinin izlənməsi və müzakirəsi.** Sinifdə həm sənət, həm də sənədli videoları, onlardan parçalar istifadə edə bilərsiniz. Müvafiq məzmunlu videoları, mövzu və məqsədinə uyğun olaraq əlavə material kimi deyil, dərslərin hər bir mərhələsində istifadə edilə bilər.Metodun məqsədi:

- İnteraktiv şəkildə nəzəri məzmunun öyrənmə prosesini təşkil etmək;
- Yeni biliklərin verilməsi yollarını yaxşılaşdırmaq;
- Hər bir şagirdin ünsiyyət bacarıqlarını inkişaf etdirmək;
- Dərsin mövzusu və məzmununun aktuallaşdırılması və görselləşdirilməsi.

Metodu tətbiq etməzdən öncə şagirdlərin qarşısında bir neçə əsas suallar qoyulmalıdır. Bu suallar mübahisənin əsasını təşkil edir. Filmi əvvəlcədən seçilmiş hissələrdə durdurub müzakirələr aparmaq olar. Artıq film bitdikdən sonra şagirdlərlə birlikdə nəticələri yekunlaşdırmaq və sualların cavablarını səsləndirmək lazımdır. (39, s. 233)

Azərbaycan dili dərsində şagirdlərə dialekt və şivə anlayışlarını daha rahat şəkildə tədris etmək üçün istifadə oluna bilər. Burda müəllimin üzərinə düşən onun

seçdiyi mövzuya uyğun, dərsin məzmununu daha düzgün ifadə edəcək film və ya video çarxın seçilməsidir.

**12. Mini mühazirə.** Mini konfrans və ya mini mühazirə nəzəri materialların şagirdlərə təqdim olunmasının effektiv formalarından biri hesab olunur. Metod nəzəri məzmunu interaktiv şəkildə əldə etmək prosesini təşkil edir.

Məqsədləri:

- Ünsiyyət bacarıqlarının inkişafı;
- Mövzunun məzmununun araşdırılması və aktuallaşdırılması.

Mini mühazirə metodundan əvvəl müəllim mövzu ilə bağlı beyin fırtınası yaradır ki, bununla şagirdlərin bilik səviyyəsini və mövzuya münasibətini öyrənir. Hər hansı bir məlumatı verməzdən əvvəl, müəllim bu barədə şagirdlərin nə dərəcə məlumatlı olduğunu bilir və bu mövzuda onların münasibətini müzakirə etməyi təklif edir. Məsələn:

- Sizcə nədir?
- Bunu necə təklif edirsiniz?
- Siz nə düşünürsünüz, bu nə nəticə verə bilər?

Sonrakı suallara keçməzdən öncə, dediklərinizi ümumiləşdirib və düzgün anladığınızdan əmin olmaq lazımdır. Çıxışın sonunda bütün suallar müzakirə olunmalıdır. Daha sonra isə müəllim şagirdləri bu mövzuyla bağlu sanki diskussiyaya dəvət edir və onların mövzunu nə dərəcə yaradıcı şəkildə istifadə ədəcəklərinə dair suallar verir:

- Bu məlumatları praktikada necə istifadə edə bilərsiniz?
- Bunun nəticəsi nədir?

Mini mühazirə metodu Azərbaycan dilində istifadə olunan ən uğurlu metodlardan biri hesab olunur. Bu metod vasitəsi müəllim şagirdlərə suallar verərək və bu sualları onlarla birlikdə təhlil edərək yeni bilik vermiş olur.

**13. Dəyirmi masa.** Müasir mənada, "dəyirmi masa" ifadəsi müəyyən bir mövzu ilə bağlı problemi müzakirə etmək yollarından birinin adı kimi istifadə olunur. Bu metod xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- ❖ Dəyirmi masada olan bütün iştirakçılar, yəni şagirdlər müdafiəçi rolunda çıxış edir, yəni müzakirə olunan problemlə bağlı digər şagirdlərin fikirlərinə baxmayaraq, hər bir iştirakçının öz fikri olmalıdır;
- ❖ Bu metodda şagirdin iki vəzifəsi olur. O həm digər şagirdlərin düşüncələrini anlamalıdır, həm də onları öz fikirlərinə inandırmalıdır;
- ❖ Müzakirə iştirakçıları bərabərhüquqludur. Heç bir şagirdə qərarlarını diktə etmək hüququ verilmir. Hər kəsin fikri önəmlidir və bütün fikirlərə hörmətlə yanaşılır. Əgər hər hansı bir səhv olunursa bu müəllim tərəfindən düzəldilir.

Çox vaxt, dəyirmi masa mövzu ilə bağlı konkret həllərin tapılması və inkişafı üçün bir vasitə deyil, informasiya rolu oynayır

**14. Təqdimat**. Təqdimat sinifdə istifadə üçün ən sadə və ən əlverişli metoddur. Multimedia avadanlıqları ilə şagird öz hazırladığı və tədqiq edilmiş materialın məzmununu ən effektiv və vizual şəkildə slaydlar vasitəsilə təqdim edə bilər. Bu metod imkan verir ki, şagirdin ictimai çıxışları daha effektiv şəkildə inkişaf etsin. Təqdimat metodu vasitəsilə müəllim hər bir şagirdin özünü ifadə etmək qabiliyyətini inkişaf etdirməyə çalışır. Lövhəyə çıxan şagird özünü səhnəyə çıxmış kimi hiss edir və alqış qazanmaq üçün özünün bütün səylərini ortaya qoyur. Bu metod bir növ şagirdin auditoriyanı ələ almaq qabiliyyətini də inkişaf etdirir. (39, s. 234)

**15. Səbət üsulu.** Səbət metodu vəziyyətin simulyasiyasına əsaslanır. Müəllim şagirdə əvvəlcədən hər hansı bir peşa və ya bölmə ilə bağlı tapşırıq verir. Şagird nəinki həmin peşəni icra etməlidir, o həmçinin həmin peşənin işini dər görməlidir. Məsələn, bir tələbə bir bələdçi kimi davranmalı və tarixi muzeyə gəzinti etməlidir. Şagirdə eyni zamanda hər bir eksponat haqqında məlumat toplamaq və həmin məlumatı çatdırmaq da tələb olunur.

Azərbaycan dili dərsində müəllim şagirdə “arxaizmlər” haqqında məlumat toplamağı tapşırır. Şagird tələb edilən tapşırığın teorik hissəsi ilə yanaşı praktik hissəsini də yerinə yetirməlidir. Səbət metodundan istifadə edən şagird bir neçə arxaizm toplayır, onları araşdırır, yəni neçənci əsrdə və ya hansı zaman çərçivəsində işlədildiyi haqqında məlumat toplayır və sonda topladığı melumatı sinifdə digər yoldaşlarıyla bölüşür. Səbət metodu şagirdlərin zehni qabiliyyətini inkişaf etdirir, onları tədqiqatçı kimi inkişaf etdirir.

**16. Yaradıcı metod.** Yaradıcı metod şagirdin sadəcə öyrənənləri təkrar etmək deyil, həmçinin yaradıcı fəaliyyətini inkişaf etdirir. Yaradıcı metodda istənilən interaktiv üsulunun məzmunundan istifadə oluna bilər.Yaradıcı tapşırıqlar şagirdlərin motivasiyasını artırır, onların bəlkə də heçkəsə məlum olmayan istedadını ortaya çıxarır.

Nümunə üçün, Azərbaycan dili dərslərində şagirdlərin istedadını ortaya çıxarmaqdan ötrü müəllim onlara “ inşa”, “ imla”, “ ifadə” kimi yazılar yazmağı tapşırır. Bu metodla sinif daxilində istedadlı şagirdlər ortaya çıxır. Müəllim sadəcə hər hansı mövzu verərək onlara bu mövzuda imla yazmağı ev tapşırığı olaraq verir. Təkcə sinif daxilində deyil, məktəb, məktəblər arası və hətta Respublika səviyyəsində də yarışmalar aparılır. Və yazı istedadı olan şagirdlər həvəsləndirilir.

**17. Krossvord.** Krosvord metodu interaktiv təlim metodları içərisində istifadə olunan ən əyləncəli metodlardan biridir. Müəllimin işləyib hazırladığı krossvordlar şagirdlərin intelektual düşünmə qabiliyyətini inkişaf etdirir.

Krossvord üsulundan adətən dərsin başlanğıcı olan motivasiya merhələsində istifadə olunur. Lakin dərsin bütün mərhələlərində də istifadə etmək olar. Krossvord metodundan aşağıdakı mərhələlərlə istifadə olunur:

- Müəllim hazırladığı krossvordu lövhədə təqdim edir;
- Krossvordda əsas məqsəd dərsin mövzusu olan sözü tapmaqdır;
- Müəllim sözləri tapmaq üçün suallar verir;
- Sonda verilən suallara cavab tapılaraq açar söz müəyyən olunur.

Krossvord üsulu şagirdlərin motivasiyasını artırır, onların nəzərini tapılacaq söz və məvhumlara yönəldir. Azərbaycan dili dərsində  hər bir mövzu ilə bağlı krossvordlar hazırlana bilər. Nümunə olaraq aşağıdakı krossvordu göstərək:

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **İ** | **L** | **X** | **I** | | | | |
| **S** | **A** | **A** | **T** | | | | |
| **İ** | **Y** | **N** | **Ə** | | | | |
| **M** | **Ü** | **H** | **A** | **R** | **İ** | **B** | **Ə** |

Yuxarıda verilən nümunədə V sinifdə dərs zamanı  keçiriləcək "İsim" mövzusuna dair krossvord vardır. Burada **İSİM** sözünü tapmaq üçün ayri-ayri isimlər verilib. Müəllim suallar verərək şagirdlərdən həmin suallara cavab tələb edir. Bir növ tapmaca şəklində aparılan sual-cavabda açar söz olan **İSİM** sözü tapılır və dərsin mövzusu hamıya məlum olur. Beləliklə, dərsin motivasiyası da belə qurulmuş olur.

**18. Klaster.** Klaster əsas semantik vahidlər birləşdirildiyi, onların arasında olan bütün əlaqələrin təyin olunduğu, sxem şəklində sabitləşdirilən, informasiya yığımının qrafik formasıdır. Ümumiyyətlə, klaster metodu təhsil materialının sistemləşdirilməsini və sintezini asanlaşdıran bir şaxələnmə və ya sxemdir. Klasterin əsas məqsədi şagirdləri mövzu haqqında sərbəst və açıq düşünməyə sövq etməkdir.

Klaster yaradılarkən müəllim tərəfindən əsas anlayış verilir və şagirdlər verilən vaxt ərzində bacardıqları qədər söz assosiasiyaları tapmağa yönəldilir. Klasterdə əsas olan söz assosiasiyaları arasında müəyyən bir əlaqənin olmasıdır. Klaster üsulu ilə müəllim şagirdləri əvvəlki bilikləri haqqında düşünməyə və onları əlaqələndirməyə yönəldir.

Klaster yaradılarkən müəllim əsas sözü verir, daha sonra şagirdlərə tapşırır ki, verilən anlayışla bağlı ağlınıza gələn bütün fikirləri yazın, fikirlərin keyfiyyəti haqqında düşünməyin. Vaxt verilir və bu vaxt ərzində "hörümçək toruna" bənzər bir şaxə əmələ gəlir. Vaxt bitdikdən sonra sinifdə hər kəs klasterin mezakirəsinə başlayır.

Azərbaycan dili dərslərində bölmələr arası əlaqələrdə və fəsil təkrarlarında klaster metodu çox əlverişlidir. Nümunə olaraq aşağıdakı klasteri verək:




**19. Debat.** Debatlar - şagirdlərin təklif etdiyi mövzu haqqında aparılan fikir mübadiləsidir. Debat iştirakçıları nümunələr və faktlarla məlumat verir və fikirlərini məntiqi sübutlarla təqdim edirlər. Debat metodunda şəxsi qiymətləndirmə və emosional təzahürlərə yol verilmir. Debat mövzusu şagirdlərin fərdi münasibətinə deyil, ümumi müzakirələrə əsaslanır. (18, s. 13)

Debatlar "bəli" və "xeyr" cavablarına əsaslanır. Şagirdlər iki qrupa ayrılır. Bir qrup müsbət, yəni "bəli"cavabının tərəfdarı, digər qrup isə mənfi, yəni "xeyr" cavabının tərəfdarıdır.

Debatlar şagirdlərdə aşağıdakı keyfiyyətləri formalaşdırır:

- Şagirdin şəxsi mövqeyini formalaşdırmaq və özünü müdafiə etmək bacarığı;
- Dialoq aparmaq və danışmaq bacarığı;
- Şagirdlərdə komanda ruhu və liderlik keyfiyyətlərini formalaşdırır.

Debatlarda iki qrup iştirak edir. Qruplar, debatın formatına uyğun olaraq neytral olan üçüncü tərəfi əmin etməlidir ki, onların təklif etdiyi fikirlər, digər qrupun fikirlərindən daha yaxşıdır. Debatların hər mərhələsi öz strukturuna görə fərqlənir.

Azərbaycan dili dərsində "Alınma sözlərin dilimizə olan təsiri" mövzusunda debat keçirmək olar. Debatda işirak edən birinci qrup "Alınma sözlərin dilimizə müsbət təsirlərini", ikinci qrup isə "Alınma sözlərin dilimizə mənfi təsiri" mövzusunu müdafiə edirlər. Müəllim hakim rolunda çıxış edə bilər və ya üçüncü qrup da yarada bilər ki, bu qrup neytral rol oynayır. Debat mövzusuna şagirdlər əvvəlcədən hazırlaşmalıdırlar.

**20.Portfelio.** Portfelio fransız sözü olub, "hesabat ölçüsü" mənasın verir. Təhsil nəticələrini nümayiş etdirmək, qiymətləndirmək, məlumatlılığı artırmaq üçün istifadə olunan şagirdlərin təhsil və bilik səviyyəsini göstərən bir texnologiyadır.

Portfelio, müəyyən bir vaxt müddətində şagirdlərin gördüyü işlərin toplusudur. Təhsil prosesində aşağıdakı portfelio funksiyaları vardır:

- Diaqnostika - Bu funksiya imkan verir ki, şagirdlərdə yaranması lazım olan sosial, mədəni, psixooji və peşə inkişafı aspektlərini, həmçinin şagirdin təhsilində problem yaradan nüansları göstərməyə kömək edir;
- Hədəf qəbulu - Öyrənənin məqsəd və vəzifələrini müəyyənləşdirmək və bunları reallaşdırmaq bacarığını da inkişaf etdirir;
- Motivasiya - İnteraktiv təlim metodlarını daxil etməklə şagirddə dərsə və ya mövzuya marağın davamlı saxlanılmasına kömək edir;
- Məlumatlılıq - Mövzu barədə bütün informasiyanın sistemləşdirilməsi üçün kömək edir;
- Qiymətləndirmə - Nəticələr əsasında rəy bildirmək, həmçinin şagirdin nailiyyət prosesini əks etdirməyə yardımçı olur.

Portfelio müəllimə kömək edir ki, hər bir şagirdin nailiyyətlərini izləsin. Bu texnologiya şagirdə imkan verir ki, şagird öz öyrənmə fəalliyyətini təşkil edə bilsin, bacarıqlarını formalaşdırsın, təhsil və bilik səviyyəsini dinamikasını müəyyənləşdirsin. (44)

Yuxarıda adlarını çəkdiyimiz interaktiv təlim metodları və texnologiyaları şagirdlərə Azərbaycan dili dərslərində təhsil keyfiyyətlərini və səviyyəsini artırmağa şərait yaradır. Şagirdlərdə Azərbaycan dili dərsinə maraq yaradır və tədqiqatçılıq bacarığını inkişaf etdirir

Dərs zamanı müəllim bir metoddan və ya üsuldan deyil, bir neçə metoddan istifadə etsə dərs daha uğurlu olacaqdır. Nümunə olaraq, Azərbaycan dili dərsində əsas və köməkçi nitq hissələrinin tədrisi zamanı təqdimat üsulu ilə şagirdlərə bir şeir və ya əsasdən parça təqdim oluna bilər, şagirdlərə burdakı sözlərin hansının əsas, hansının isə köməkçi olması barədə sual və tapşırıqlar verilir. Bu zaman diskussiya və beyin həmləsindən istifadə oluna bilər. Göründüyü kimi, bu dərsdə 3 metoddan istifadə edilir. Təbii ki, bu metodların sayı daha da çox ola bilər, əsas məqsəd odur ki, dərs fəal şəkildə və düzgün formada şagirdlərə çatdırılsın.

Ümumiyyətlə, qeyd etdik ki, interaktiv təlim metodlarının növləri çoxdur və getdikcə də çoxalır. Hər bir müəllim-pedaqoq metod yaradıcılığında yaxından iştirak edə bilər. İnteraktiv təlimə gəldikdə isə deyə bilərik ki, bu təlim aşağıdakı bacarıqları inkışaf etdirir:

- Fəal-idrak və intellektual düşünmə qabiliyyətinin inkişafı ;
- Şagirdləri təlim prosesinə cəlb etmək, yeni materialları passiv dinləyici kimi deyil, aktiv iştirakçılar kimi qəbul edib mənimsəmək qabiliyyətini ;
- Şagirdlərin ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi ;
- Şagirdlərdə ənənəvi olan sinif işlərinin həcminin azaldılması və müstəqil iş həcminin artırılması ;
- Tədris materialını öyrənmək üçün motivasiyanın yaradılması və gücləndirilməsi ;

- Sinifdə yaradıcı və dəstəkləyici mühitin yaradılması ;
- Təhlil və tənqidi düşünmə bacarıqlarının inkişaf etdirilməsi ;
- Müasir texniki vasitələrdən istifadə etmək bacarığının inkişaf etdirilməsi ;
- Təlim prosesinə yararlı olan məlumatları müstəqil şəkildə tapmaq və onların etibarlılıq dərəcəsini müəyyənləşdirmək üçün bacarıq və qabiliyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi ;
- Şagirdlər kompüterdən istifadə etməklə təhsil resurslarına və proqramlarına qoşulma bacarığını inkişaf etdirirlər ;
- Təlimdə elektron testlərlərdən istifadə tələbələrin bilik və bacarıq fəaliyyətinin qiymətləndirilməsinin obyektivliyini artırmağa imkan verir ;
- Təlim prosesi zamanı şagirdin tədqiqatçı, müəllimin isə fasilitator, yəni məsləhətçi rolunu təmin edir.

ADU
Docendo discimus
Öyrədərək öyrənirəm
AZERBAIJAN UNIVERSITY OF LANGUAGES
АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

# NƏTİCƏ

Tədqiqat nəticəsində bizə məlum oldu ki, Azərbaycan dilinin tədrisi metodikası digər elmlərə nisbətən daha gənc bir elmdir. Bir elm kimi Azərbaycan dilinin metodikası XIX əsrin 80-ci illərindən inkişaf etməsinə baxmayaraq, XVIII əsrdə didaktik məzmunlu əsərlərdə rast gəlinirdi. Azərbaycan dili tədrisi metodikasının inkişafında bir çox dərslik, jurnal və qəzetlər rol oynamışlar. Lakin bunlar içərisində sistemli şəkildə tədris baxımından "Vətən dili" dərsliyinin böyük önəmi vardır. Azərbaycan dilinin tədrisi metodikasının tarixi inkişafına nəzər salsaq görərik ki, Azərbaycanın dahi şəxsiyyətləri bu prosesdə ciddi fəaliyyət göstərmişlər.

Dünyanın istənilən ölkəsində olduğu kimi, Azərbaycanda da təhsil ən önəmli sahələrdən biridir. Belə ki, təhsildə aparılan islahatlar, Boloniya sisteminə keçid, Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası və bu kimi bir çox tədbirlər göstərir ki, ölkəmiz nə dərəcədə təhsilə önəm verir. Təhsilimizin Avropa təhsilinə inteqrasiyası atılan ən uğurlu addımlardan biri idi. Yüksək səviyyədə inkişaf etmiş ölkələrin təcrübəsindən faydalanmaq hər zaman müsbət nəticələnmişdir. Lakin bu sahədə uğurlar qazanarkən azərbaycançılıq ideologiyasını və milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Elə bu səbəbdəndir ki, gənclərin milli ruhda böyüyüb, müasir təhsil almaları üçün bir sıra tədbirlər görülür. Təbii ki, bu səylər nəticəsiz qalmır. Gənclərimiz ölkəmizi Avropa və digər xarici ölkələrdə uğurla təmsil edirlər.

Qloballaşma prosesi və Azərbaycan təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası təhsilimizdə yeniliklər edilməsi zərurəti yaratdı. Belə ki, fəal-interaktiv metoda keçid bu proseslərlə bağlıdır. Dissertasiyamızdan da görünür ki, interaktiv təlim metodları müəllim-şagird, şagird-şagird sxemlərinə əsaslanaraq mühüm əhəmiyyət kəsb edir.

Təcrübə sübut edir ki, insanların mənəviyyatı, əxlaqı, düşüncəsi ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı elə xalqın özüdür. Təbii ki, bu məvhum özündə bir çox mənanı birləşdirir. Bu dəyərlərin yaranması da illərlə, əsrlərlə zaman alır.

Ümumiyyətlə, onu qeyd edək ki, nəticə olaraq bir xalq öz mövcudluğunu qoruyub irəliyə ötürmək istəyirsə, öz milli-mənəvi dəyərlərinə sahib çıxmalı və onları mühafizə etməlidir.

Araşdırmalarımıza əsasən, gördük ki, ilk dövrlərdə Azərbaycan dilinin tədrisində Höccələmə metodundan istifadə olunurdu. Höccələmə metodu mollaxanalarda Quranı öyrədərkən istifadə edilirdi və çox qəliz bir metod idi. Nəticəsi olaraq deyə bilərik ki, bu metodla savad almağa çalışan uşaqların heç biri düzgün oxuyub yaza bilmirdilər. Təlim prosesini ləngidən bu metod çox yaşamadı.

Qori müəllimlər seminariyası dövründə "Vətən dili " dərsliyində istifadə olunan Sövti metodu da elə bu uğurusuz metodlardan biridir. Bildiyimiz kimi bu metod başqa sözlər səsli metod adlanırdı. Bu metodun da istifadəsi tədrisi çətinləşdirirdi. Məhz bu səbəbdəndir ki, bu metod da tarixə qarışdı və istifadəsi dayandırıldı.

Fəal-interaktiv təlim metoduna qədər biz ənənəvi təlim metodundan istifadə edirdik. Bu metod əvvəlkilərə nəzərən daha faydalı metod idi. Lakin bu təlim metodunda avtoritarlığın olması onun süqut etməsinə gətirib çıxardı.

Dissertasiya yazılan müddətdə gedən araşdırmalardan aydın oldu ki, müasir təhsil sistemi, bu təhsil sisteminin ən başlıca ünsürü hesab olunan fəal-interaktiv təlim metodları istər ümumtəhsil ocaqlarında, istərsə də ali təhsil müəssisələrində ən passiv şagirdi və ya tələbəni belə dərsə cəlb etməyə qadirdir. Şagird və ya tələbə istəməsə belə dərsdə gedən oyunlara qoşulur, müəllimin suallarına cavab verir və digər şagirdlərlə fikir mübadiləsinə girir.

Fəal-interaktiv təlim metodu Dövlət Standartlarına uyğunlaşdırılmışdır. Təbii ki, bu metodun özündə də noqsanlara rast gəlirik, amma demək olar ki, bu nöqsanlar elə də gözə çarpan nöqsanlar deyil. Bugün təhsilimizdə müasir təlim metodunun inkişafı üçün təhsil müassisələri müasir avadanlıqlarla təchiz edilmişdir. Təhsil müəssisələrini hər birində təcrübəli kadrlar təhsil verir.

Fəal-interaktiv təlim zamanı müxtəlif metod və priyomlardan istifadə edilir. Demək olar ki, bu metodların sayı 400-dən artıqdır. Araşdırmalarımızdan görünür ki, hər bir metodun özünəməxsus rolu vardır. Bu metodları dərsə uyğunlaşdırmaq isə müəllimin üzərinə düşür. Əgər metodlar dərsin gedişatına uyğun seçilibsə dərs də, təhsil prosesi də təsirli olar.

Dissertasiyamızda bir neçə interaktiv təlim metodundan istifadə etmişik. Bu metodların **diskussiya (müzakirə), beyin həmləsi, oyun, rollu oyun, söz assosiasiyası, problemli vəziyyət, qərarlar ağacı, BİBÖ (Bilirəm, İstəyirəm bilim, Öyrəndim.), venn diaqramı, karusel, akvarium, video filmlərin izlənməsi və müzakirəsi, mini mühazirə, dəyirmi masa, təqdimat, səbət üsulu, yaradıcı metod, krossvord, klaster, debat, portfelio** kimi bir neçə növünü daxil etmişik. Bu metodların hər birinə aid nümunələr də verilmişdir. Əsas məqsədimiz hər birinə uyğun nümunə daxil edib, onları dərslərə uyğunlaşdırmaqdır. Nəticə olaraq deyə bilərik ki, metodların hər biri vacib və əhəmiyyətlidir. Heç bir metod digərindən geri qalmır və ya zəif deyildir. Sadəcə əsas məsələ hər bir metod və priyomun keçirilən dərsə uyğunlaşdırılıb, şagirdlərə təqdim edilməsidir. Bu problemin həlli isə artıq müəllimin üzərinə düşür.

Araşdırmamızda qədim zamanlardan bugünə kimi Azərbaycan dilinin tədrisi metodikasıyla bağlı olan problemlər tədqiq edilmiş və həlli yolları axtarılmışdır. Bu problemlərə qloballaşma prosesinin təhsilə verdiyi mənfi cəhətlər, təhsilin inteqrasiyası zamanı milli-mənəvi dəyərlərin qorunmasında atılan addımlar, müasir təhsil məsələləri, fəal-interaktiv təlim metodları və onların istifadə yöntəmləri verilmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT :

## Azərbaycan dilində


1. A. Abdullayev Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Maarif" nəşriyyatı, 1978. 280 səh.
2. A.Abdullayev Azərbaycan dilinin tədrisi metodikasının formalaşması, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2011. 209 səh.
3. A.Babayev Azərbaycan dili və Nitq mədəniyyəti. Bakı: "Gənclik" nəşriyyatı, 2017. 572 səh.
4. A.Kazımov, T.Osmanova Azərbaycan dili dərslərində interaktiv təlim metodları, Bakı: "Elm və təhsil" nəşriyyatı, 2011. 66 səh.
5. A.Qəhrəmanov "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçilari üçün təlim materialı, Bakı: Xəzər Universteti nəşri, 2012. 69 səh.
6. A.Məmmədov Təlimin psixoloji əsasları, Bakı: "Maarif" nəşriyyatı, 1993. 296 səh.
7. A.Məmmədova Azərbaycan dilinin tədrisi tarixi, Bakı: "Mütərcim" nəşriyyatı, 2015. 324 səh.
8. A.N.Rəhimov Ana dilinin tədrisi metodikası ( ibtidai siniflərdə ). Bakı: "Nurlan" nəşriyyatı, 2003. 407 səh.
9. A.N.Rəhimov Ana dilinin tədrisi metodikası, Bakı: "Nurlan" nəşriyyatı, 2003. 406 səh.
10. A.O. Çernyayevski "Vətən dili" Türki-Azərbaycan dilində, Bakı, 1904. 64 səh.
11. A.S.Abdullayev. Azərbaycan dili tədrisi tarixindən. Bakı: "Maarif" nəşriyyatı, 1966. 330 səh.

12. A.S.Kazımov Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı: ADPU nəşri, 2013. 186 səh.

13.Azərbaycan dili tədrisi metodikasının təkmilləşdirilməsi problemləri, Elmi əsərlər məcmusu, Bakı: V.İ.Lenin adına APİ-nin nəşri, 1983. 97 səh.

14.Azərbaycan Respublikasında ali təhsilinyeniləsməsi uğrunda: təhsil islahatlarına dəstəklayihəsi cərcivəsində“Avropa ali təhsilinə inteqrasiya: problemlər,perspektivlər”movzusunda Tətbiqi Tədqiqatlar Fondu və AzərbaycanTurizm İnstitutunun birgə kecirdikləri elmi praktikkonfransın materialları, Bakı: “Fəxrim- film” nəşriyyatı, 2011. 182 səh.

15.B.A.Əhmədov Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları. Bakı: “Maarif” nəşriyyatı, 1974.  114 səh.

16. C.Musayeva Ana dili dərslərində interaktiv təlim metodlarından istifadənin əhəmiyyəti // Elm və həyat: Elmi-populyar jurnal. 2016, № 4, s. 93-95.

17.Ə.Bayramov Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri, Bakı: “Maarif” nəşriyyatı, 1967. 351 səh.

18. Ə.Bədəlova Fəal interaktiv metodlar və ənənəvi təlim // Azərbaycan dili və ədəbiyyatı  tədrisi: elmi-metodik jurnal. 2015,№ 4, s.9-16.

19.Ə.Əfəndizadə, B. Əhmədov, M. Həsənov, J. Əfəndiyev, K. Mikayılov Azərbaycan dilinin tədrisi ( V-VIII siniflərdə ), I hissə. Bakı: “Maarif” nəşriyyatı, 1965. 314 səh.

20. F.Abdullazadə və b. Azərbaycan Respublikası (1991-2001). Bakı: ”Yeni nəşrlər evi” nəşriyyatı, 2001. 280səh.

21.G.M.Əhmədova Bəşir Əhmədovun Azərbaycan dilinin tədrisi metodikasının inkişafında rolu, magistr dissertasiyası, Bakı, 2011. 73 səh.

22.H.B.Balıyev Ana dilinin tədrisi metodikası, Bakı: “Bilik”, “Maarifçilik Cəmiyyəti” nəşriyyatı, 1997. 102 səh.

23. H.B.Balıyev Azərbaycan dilinin tədrisi metodikası, Bakı: “Qismət” nəşriyyatı, 2014. 380 səh.

24. H.B.Balıyev Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Maarif" nəşriyyatı, 1988. 285 səh.
25. H.K.Piriyev, E.Q.Həşimov, S.Valehov Tədrisdə interaktiv təlim metodları. Konkret vəziyyətlərin təhlili ( case study ) metodu, Bakı: "Hərbi" nəşriyyatı, 2017. 30 səh.
26. I.Ismayılov, M.Əmirov, H.Qurbanov, C.Cəfərli, E.İmanov Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Təhsil" nəşriyyatı, 2014. 136 səh.
27. O.Abbasov Dərsdə interaktiv təlim metodlarının tətbiqi vasitəsilə şagirdlərə milli dəyərlərin aşılanması // Azərbaycan dili və ədəbiyyatı : jurnal. 2011, № 1, s. 41-43.
28. O.Məmmədov Təlimdə interaktiv metod və formaların tətbiqi // Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal. 2013, №3, s. 56-58.
29. R.Məmmədli Azərbaycan folklorunun vurğunu Firudin bəy Köçərli, Bakı: F.Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2018. 69 səh.
30. S.Xəlilov Heydər Əliyev və azərbaycançılıq məfkurəsi, Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2002. 232 səh.
31. S.Mustafayev Milli mənəvi dəyərlər qorunub saxlanılır, // Respublika.-2008.-23 dekabr.-S.4.
32. S.R.Bədiyev Ənənə və müasirlik, AMİ-nin Şəki filialının kafedra müdiri, pedaqogika üzrə fəlsəfə doktoru, məqalə. Şəki, 2013. 5 səh.
33. Ş.Nəbiyeva Ana dili tədrisi metodikasının aktual problemləri, Bakı: ADPU mətbəəsi, 2010. 144 səh.
34. T.Hacıyev Dilimiz mənəviyyatımızdır, Bakı: "Azərbaycan məktəbi" , 2015,-№1-s. 22-25.
35. V.T.Qurbanov Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Müəllim" nəşriyyatı, 2014. 258 səh.
36. Y.Ş.Kərimov Ana dilinin tədrisi metodikası, Bakı: "Kövsər" nəşriyyatı, 2011. 563 səh.

37. Y.Ş.Kərimov İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası, Bakı: "Səda" nəşriyyatı, 2013. 551 səh.

**Rus dilində**

38. А.Н.Кононец Педагогическое моделирование: новые вопросы/ А. Н. Кононец //Инновационные подходы к организации образовательного процесса в современном техническом вузе: сб. метод. тр./ под ред. Л. П. Лазаревой ; ДВГУПС. - Хабаровск: Изд-во ДВГУПС, 2008. - С. 22-31.
39. А.Н.Созоров Flash-технологии в образовании //Тезисы докладов Всероссийской научно-методической конференции с международным участием "Повышение качества непрерывного профессионального образования" Красноярск: ИПЦ КГТУ, 2006. С. 233-234.
40. И.А.Зимняя Ключевые компетенции – новая парадигма результата образования // Высшее образование сегодня. – 2003. – № 5. – С. 34–42; Компетентностный подход… // Высшее образование сегодня. – 2006. - № 6.– С. 20-26.
41. М.А.Косолапова Технологические подходы в организации профессиональной подготовки к педагогической деятельности в высшей школе /Косолапова М.А.; Томский гос. пед. ун-т. – Томск, 2007. – 177 с. – Библиогр. : с. 104 – 110. Деп. В ИНИОН РАН № 60426
42. М.А.Косолапова, В.И.Ефанов Развитие профессиональной компетентности преподавателя технического вуза при повышении квалификации // Материалы международной научно-методической конференции «Современное образование: проблемы обеспечения качества подготовки специалистов в условиях перехода к многоуровневой системе высшего образования» Томск: ТУСУР, 2012, с. 161-162.
43. М.Карпенко Новая парадигма образования XXI в.// Высшее образование в России.–2007.- №4. – С.93.

44. Н.Н.Двуличанская Интерактивные методы обучения как средство формирования ключевых компетенций // Наука и образование : электронное научно – техническое издание , 2011
45. О.Б.Воронковова Информационные технологии в образовании: интерактивные методы , Ростов-на-Дону: «Феннbacks» , 2010. Ст. 314
46.Ю.В.Гушин Интерактивные методы обучения в высшей школе\\Психологический журнал. 2012, №2, с. 1-18.

**Internet resurslar**

47. "Biz öz milli-mənəvi dəyərlərimizə sadiqik" // www.olaylar.az/nws/sosial/111271
48. C.Zeynaloğlu Milli-mənəvi dəyər və müasirlik // www.zim.az/kose/3564-milli-mnvi-dyrlr-v-masirlik.html
49. İ.Məmmədli "Şagirdlər üçün mənəvi dəyər başlıca vasitə olmalıdır" // www.azadinform.az/news/a-118908.html
50.N.Ağaverdiyeva Ali təhsildə Boloniya sistemi// www.anl.az/down/meqale/ses/2010/iyun/125724.htm
51.N.Xudiyev Azərbaycan müasir təhsil sistemi: problemlər, düşüncələr, mülahizələr // www.xalqqazeti.com/az/news/education/29194